**H.Rəcəbli.** Sağ olun. Hörmətli Oqtay müəllim, layihə, dediyiniz kimi, üçüncü oxunuşda müzakirə olunur. Rəqəm eyni olaraq qalır, 83 milyon 451 min 400 manat civarında olan rəqəmdir. Bu rəqəmin də, bildiyiniz kimi, 50 faizi bilavasitə özünüməşğulluğa yönələcək. Bu da, düşünürəm ki, çox məqbul bir göstəricidir. Ona görə də deputat həmkarlarımı bu büdcəyə səs verməyə çağırıram. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 2 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

4-cü məsələ Yaşayış minimumu haqqında qanun layihəsidir. Bu haqda biz çox danışmışdıq. Hesab edirəm, heç bir dəyişiklik yoxdur. Əgər başqa təklif yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 4 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

5-ci məsələ Ehtiyac meyarı haqqında qanun layihəsidir. Bu haqda da biz yetərincə danışdıq. Əgər təklif yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 3 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 6-cı və 7-ci məsələlər Milli Məclisin, eləcə də Hesablama Palatasının xərclər smetası haqqında qanun layihələridir. Verilən təkliflərin hamısı hökumət tərəfindən qəbul olundu, təsdiq edildi. Təklif yoxdursa, xahiş edirəm, Milli Məclisin xərclər smetası haqqında layihəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

7-ci məsələyə, Hesablama Palatasının xərclər smetası haqqında layihəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi. Çox sağ olun, büdcə zərfinə daxil olan sənədlər təsdiq olundu.

Növbəti yeddi məsələ Vergi Məcəlləsinə edilən dəyişikliklərlə əlaqədardır. Bildiyiniz kimi, bu məsələlər büdcə zərfi ilə paralel getməlidir. Bu gün ikinci oxunuşdur. Mən hesab edirəm ki, birinci oxunuşda çox dəyişikliklər olma-

dı, əgər etiraz eləmirsinizsə, müzakirələrdən sonra ikinci və üçüncü oxunuşlarda qəbul edərik.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mən hələ söz verməmişəm, mən sual verdim. Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, millət vəkilləri! Artıq Oqtay müəllim qeyd etdi ki, Vergi Məcəlləsində dəyişikliklər İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində kifayət qədər müzakirə edilmişdir. Müzakirələr prosesində, demək olar ki, Milli Məclisin əksər üzvləri öz fikirlərini bildirmişlər. Birmənalı şəkildə vurğulanır ki, Vergi Məcəlləsində edilən dəyişikliklər Azərbaycan iqtisadiyyatında şəffaflığın artırılmasına, biznes mühitinin daha da yaxşılaşdırılmasına, sahibkarlıq münasibətlərinin təkmilləşməsinə, əmək, sosial sahədə yaranmış problemlərin xeyli hissəsinin həllinə, – yəni bilirsiniz ki, əmək münasibətləri problemi var, əmək haqqının, işçilərin uçota alınmaması halları var, bütün bunlar da, təbii ki, ölkə iqtisadiyyatının səmərəlilik göstəricilərinə bilavasitə təsir edir, – yönəlmişdir. Mən Vergilər Nazirliyinə təşəkkür edirəm ki, müzakirələr prosesində millət vəkillərinin qaldırdığı məsələlər diqqətlə araşdırılmış, peşəkar mütəxəssislərdən ibarət olan işçi qrupu dəfələrlə Milli Məclisin üzvləri ilə görüşmüşlər. Eyni zamanda, bilavasitə nazirliyin rəhbərliyi təklif edilən dəyişikliklərə birmənalı şəkildə münasibət bildirmişdir. Təbii, bir sıra məsələlər var ki, onların gələcəkdə qəbul edilməsi nəzərdə tutulmuşdur. Buna baxmayaraq, Vergilər Nazirliyi bu məsələlərə də münasibət bildirmişdir.

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, mən

Vergilər Nazirliyinin ayrı-ayrı deputatların qaldırdığı məsələlərlə əlaqədar fikirlərini həmin deputatlara çatdırmışam. Fazil Mustafanın, Əli Hüseynlinin, Vahid Əhmədovun, Əli Məsimlinin, Musa Quliyevin, digər millət vəkillərinin əksər təklifləri nəzərə alınmışdır. Təbii ki, bütün bu dəyişikliklər, ümumiyyətlə, Vergi Məcəlləsinin sivil, beynəlxalq standartlara cavab verməsinə imkan verəcəkdir. Əgər ehtiyac varsa, mən o təklifləri səsləndirim, münasibətləri bildirim. Ehtiyac yoxdursa, hesab edirəm ki, bütövlükdə Vergi Məcəlləsi Azərbaycanın bugünkü reallığını və yaxın gələcəkdə görüləcək işlərə böyük bir təminat yaradacaqdır. Çünki bu dəyişikliklərlə Azərbaycanda əmək münasibətlərində şəffaflıq əhəmiyyətli dərəcədə artacaq. Vergi Məcəlləsində edilən dəyişikliklər bütövlükdə vergi mühitini yaxşılaşdıracaq, vergi yükünün deyil, vergi ödəyicilərinin sayının artmasına xidmət edəcəkdir. Sadələşdirilmiş vergi, fiziki şəxslərdən tutulan vergi və bunlarla əlaqədar uzun illər mövcud olan problemlərin həllində, hesab edirəm, millət vəkilləri də hesab edirlər ki, cəsarətli addımlar atılacaqdır. Bütövlükdə, millət vəkillərindən xahiş edərdim ki, bu qanun layihəsinə öz müsbət münasibətlərini bildirsinlər.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, İsa Həbibbəylinin sualı var idi, buyursun.

**İ.Həbibbəyli.** Çox sağ olun. Oqtay müəllim, mən də Vergi Məcəlləsinə edilən dəyişiklikləri ölkəmizdə yeni iqtisadi inkişafa nail olmaq üçün atılmış böyük əhəmiyyətə malik müddəalar kimi dəyərləndirirəm və hesab edirəm ki, Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklər ölkədə iqtisadiyyatın inkişaf etdirilməsinə, sahibkarlığın möhkəmlənməsinə xidmət eləyir. Bütövlükdə bunları islahatyönlü dəyişikliklər hesab eləmək olar və bu islahatlar

Prezident cənab İlham Əliyevin apardığı siyasətə tamamilə uyğundur. Ölkəmizin gələcək inkişafına xidmət edəcəkdir. Bununla yanaşı, Vergi Məcəlləsinin 106.1-ci maddəsində mənfəətin təhsil, səhiyyə, idman və mədəniyyət müəssisələrinə köçürülən hissəsinə vergi güzəştlərinin nəzərdə tutulmasını yaxşı hal hesab edirəm. Bu çox müsbət haldır və həmin sahələrin inkişafına öz töhfəsini verəcəkdir. Hesab edirəm ki, bu sahəyə təhsil, səhiyyə, idman, mədəniyyət sahələri ilə yanaşı, elmi müəssisələri də aid etmək olar. Bu, ölkəmizdə möhtərəm Prezidentimizin elm sahəsində apardığı islahatların məntiqi ilə tamamilə uyğun gəlir. Mən bütövlükdə Məcəlləyə edilən dəyişiklikləri müsbət hal hesab edirəm, ona səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, cənab Sədr. Hörmətli Baş nazir, hörmətli qonaqlar, xanımlar və cənablar! Doğrudan da, son vaxtlar Vergilər Nazirliyində vergi inzibatçılığının təkmilləşməsi, şəffaflığın artırılması istiqamətində görülən işləri insanlarımız, xüsusilə də sahibkarlarımız çox yüksək qiymətləndirirlər. Ən azından sahibkarlara mədəni bir münasibət formalaşmaqdadır. Bunun özü son dərəcə əhəmiyyətli bir məsələdir.

Mən də hörmətli İsa müəllimin təkliflərini dəstəkləməklə yanaşı, 106-cı maddə ilə bağlı əlavə bir neçə təklif vermək istəyirəm. Hesab edirəm ki, əgər sahibkarlar, insanlar xeyriyyəçilik fəaliyyəti ilə məşğul olurlarsa, onlar həmin o xeyriyyəçiliklə bağlı gördükləri işlərə görə hər hansı vergidən azad olmalıdırlar. Bu günlərdə, məsələn, çox hörmətli Mehriban xanımın təşəbbüsü ilə Paşa Holdinq tərəfindən qaçqınlar üçün böyük bir mənzil kompleksi tikildi. İndi həmin şirkəti buna görə vergiyə cəlb eləmək nə dərəcədə düzgündür? Ona görə də mən hesab edirəm, –

bizim hətta Konstitusiyanın özündə belə, 144-cü maddəsinin 1-ci hissəsində qeyd olunur ki, normativ hüquqi aktlar haqqa və ədalətə əsaslanmalıdır, – bizim qəbul elədiyimiz qanunlar həm də ictimai əxlaq ilə, etik qaydalarla da dəstəklənməlidir. Əgər kim isə mənfəət qazanmırsa, o halda ondan, tutaq ki, mənfəət vergisi almaq nə dərəcədə doğrudur? Düşünürəm ki, cəmiyyətdə xeyriyyəçilik fəaliyyətini stimullaşdırmaq üçün biz bu cür fəaliyyətə görə ödənilən məbləğləri vergidən tamamilə azad eləməliyik.

Bu günlərdə mənim diqqətimi "Gallup" sosial tədqiqat təşkilatının 140 ölkədə keçirdiyi sorğu cəlb elədi. Ehtiyacı olanlara kömək edilməsi vəziyyətini öyrənib. Azərbaycan 21 xalla, – yəqin ki, hökumət üzvləri bu barədə məlumatlıdırlar, – ən aşağı xal toplayan ölkələr siyahısındadır. Hətta Rusiya və Gürcüstan da 22 və 23 xalla bizdən öndədirlər, inkişaf etmiş ölkələrdə isə bu xallar 50-60 arasında dəyişir. Əslində, "Gallup" dövlətlərə çağırış edib ki, dövlət insanları cəmiyyətin problemlərinin həllinə həvəsləndirməlidir. O baxımdan hesab edirəm ki, xeyriyyəçilik fəaliyyəti ilə bağlı müəyyən fiziki, hüquqi şəxsləri vergidən azad eləsək, cəmiyyətə çox böyük bir töhfə vermiş olarıq.

İkinci bir məsələ. Oqtay müəllim, biz məktəb və uşaq bağçalarının tikintisi ilə əlaqədar fəaliyyəti stimullaşdırmaq üçün onların ən azı 3 il vergidən azad olunması, növbəti 5 ildə də vergi güzəştlərinin nəzərdə tutulmasına xüsusi diqqət yetirməliyik. Ona görə ki, doğrudan da, bizdə, xüsusilə Bakı şəhərində dərslər bir neçə növbəlilik əsasında keçirilir. Hökumətin də qarşısında duran ən böyük məsələlərdən biri budur. Ona görə də biz bu istiqamətdə sahibkarlara güzəştlər eləməliyik ki, bu məsələlər sürətlənsin.

Bir də, regionların inkişafı ilə əlaqədar olaraq. Mən

əvvəllər də bu mövzuda çıxış eləmişəm. Məsələn, bu günlərdə yenə mətbuatdan oxuduq ki, Tokio şəhərindən insanların köçməsi üçün Yaponiya hökuməti hər vətəndaşa 26 min ABŞ dolları vəsait təklif eləyir ki, onlar Tokiodan çıxıb, ucqarlarda yaşasınlar. Biz də sahibkarları stimullaşdırmaq üçün hesab edirəm, Bakı, Abşeron, Sumqayıt istisna olmaq şərti ilə Azərbaycanın digər bölgələrinə investisiya qoyan, istehsal və emal müəssisələri yaradan sahibkarları 3 il vergidən tam azad eləyək, 5 il də vergi güzəşti nəzərdə tutaq ki, Bakı boşalsın. Bilirsiniz, onsuz da, əgər müəssisələr yoxdursa, hesab eləyək ki, 5 il bundan sonra da o müəssisələr tikilməyəcək. Bizim sahibkarlar çox vaxt kapitalı xaricə çıxarırlar. Gürcüstana nə qədər investisiya qoyuruq, Qazaxıstana, Rusiyaya? Ona görə belə güzəştlər olarsa, düşünürəm ki, Azərbaycanın regionlarını inkişaf etdirə və Bakını da yüklənmədən xilas edə bilərik. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən**. Sağ olun. Fazil Mustafa. Xahiş edirəm, bir az qısa.

**F.Mustafa**. Çox sağ olun, hörmətli Oqtay müəllim. Mən qısaca Vergilər Nazirliyinin bu günlərdə bizim təkliflərimizə necə həssas yanaşması ilə bağlı məsələni gündəmə gətirirəm. Bu, bizim təcrübədə ilk dəfədir. Çünki biz burada dəfələrlə məsələlər qaldırırıq, əksər nazirliklərdən belə bir məktub almırıq ki, sizin filan təklifinizə baxılıbdır və hansısa formada həll olunur. Mən çox arzulayardım ki, bu təcrübədən bizim digər nazirliklər də istifadə etsin. Ən azı, büdcə müzakirələrində səslənən fikirlərə bu münasibət həm də Milli Məclisin özünə olan hörmətli münasibətdir və bu tendensiyanı, yaxşı ənənəni davam etdirmək vacibdir.

Mən burada hökumət üzvlərinin də iştirak eləməsindən istifadə eləyərək qısaca nəyi demək istəyirəm? Doğrudan da,

məsələn, Türkiyədə, İstanbul şəhərində, tutaq ki, mindən artıq azərbaycanlı uşağı əvvəl təhsilsiz idilər, orada ictimai birliklər çətinliklə də olsa, müəllimlər az maaş alsa da, müəyyən məktəblər yaratdılar və uşaqlar artıq təhsil almağa başlayıblar. O kimi yerlərə hansısa sahibkar vəsait ayırırsa, pul ödəyirsə, – bu, millətimizin təhsili ilə, gələcəyi ilə bağlı məsələdir, – bu adamların vergidən azad olunmasını düşünmək çox vacibdir və yerində bir addım olardı.

Eyni zamanda, mən də Bakı şəhərinin yüklənməsi ilə bağlı təklifi səsləndirirəm, keçən dəfə də qaldırmışdım. Məsələn, mən dünən Gəncə şəhərində oldum. Gəncəyə ölkə Prezidenti tərəfindən, demək olar ki, həqiqətən də, cəmiyyətlə təmas quran, insanların ayağına gedən bir icra başçısı təyin olunub. Kifayət qədər insanları, sahibkarları qəbul edir, problemləri ilə məşğul olur. Bu da sevindirici haldır ki, insanlarda ən azı bir canlanma, dövlətə münasibətdə fərqli duyğular yaranır. Amma Gəncə kimi böyük bir şəhərə həftədə 3 dəfə təyyarə uçur. Biz əgər istəyiriksə ki, regionlar inkişaf eləsin və Gəncə kimi şəhərə təyyarənin gündə bir dəfə gedib-gəlməsini təmin eləyə bilmiriksə, – halbuki təyyarələr dolu olur və heç bir problem olmur, – biz onda regionda hansı problemi həll etmək hədəfinə çata bilərik? Buna görə də bu məsələni, məncə, hökumət düşünməlidir, ən azı Azərbaycanın ikinci böyük şəhərində elə bir universitet yaratmalıyıq ki, Bakı universitetinə bərabər olsun, artıq tələbələrin çoxu öz-özlüyündə orada oxumağa qərar versin. Elə bir işçi mühiti yaratmalıyıq ki, sahibkar ora getsin, orada qazansın. Xeyli müəssisələr özəlləşdirilib, amma əksəriyyəti işləmir. Sahibkar onu işlədə bilmir. Ola bilsin, müəyyən məsələlər, maneələr var ki, buna gücü çatmır. Dövlət əgər vergi siyasəti vasitəsi ilə bunu eləsə, regionlar inkişaf etsə, Bakının bu

dərəcədə yük altında qalmasının da qarşısını almaq olar. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən**. Sağ olun. Əli Məsimli.

**Ə.Məsimli**. Çox sağ olun, cənab Sədr. Vergi islahatları ilə bağlı irəli sürülən bütün təklifləri biz dəstəkləmişik, eyni zamanda, bir sıra təkliflərimizi irəli sürmüşük. Təkliflərə yazılı cavab verildiyinə görə mən təşəkkür edirəm. Vergi Məcəlləsi qəbul ediləndən indiyə qədər ona yüzlərlə əlavə olub və o əlavələr də bir-biri ilə heç də həmişə uzlaşmayıb, ona görə də ilk növbədə yeni Vergi Məcəlləsinin qəbulu istiqamətində işçi qrupunun yaradılmasını və müvafiq addımlar atılmasını vacib hesab eləmişik. Bu təklifimizə müsbət cavab verildiyinə görə Vergilər Nazirliyinə təşəkkür edirik.

İkinci, hökumət nümayəndələrinin burada olmasından istifadə edərək bir məsələnin həllinin sürətləndirilməsini xahiş edirik. Bizə çoxsaylı müraciətlər olur ki, fiziki şəxslərin gəlir vergisindən yeddi il müddətinə azad olunması kimlərə aiddir? Burada açıq formada yazılıb ki, qeyri-neft sektoru və qeyri-dövlət sektorunda çalışanlara. Qeyri-neft sektoru aydındır. Amma qeyri-dövlət sektorunda bunun tətbiqi ilə bağlı müəyyən dərəcədə araşdırmalar aparmağa, bu sərhədləri müəyyən etməyə ehtiyac var. Qeyd etmək istəyirəm ki, bu təklifləri deputat həmkarım Vahid Əhmədovla birgə qaldırmışıq. Hazırkı çıxış da ikimizin adındandır və cavab da, hesab edirəm, kifayət qədər korrekt verilib ki, bu məsələdə sərhədin müəyyənləşdirilməsi Nazirlər Kabinetinə həvalə olunacaq. Xahiş edərdim ki, bu qanun qəbul ediləndən sonra həmin sərhədlərin müəyyənləşdrilməsi sürətlənsin ki, qeyri-müəyyənlik olmasın.

Deməli, qaldırdığımız növbəti məsələ əlavə dəyər ver-

gisi ilə bağlı idi. Biz bu məsələni lap çoxdan, on il bundan qabaq da qaldırmışıq və Azərbaycan Milli Məclisi adından bu təkliflər aidiyyəti orqanlara gedib, müsbət cavablar verilib. İdeya ondan ibarətdir ki, əlavə dəyər vergisi haradasa 14–15 faizdən yüksək olanda onun iqtisadiyyata xeyrindən çox ziyanı olur. Ona görə də əlavə dəyər vergisinin 18 faizinə hələlik dəymirik, amma onun diferensiallaşması istiqamətində addımlar atıla bilər. Buna da cavabın bir hissəsini müsbət, məqbul hesab edirik ki, burada sui-istifadə hallarından istifadə mümkündür. Amma Oqtay müəllim, hesab edirəm ki, elmi-texniki tərəqqini sürətləndirmək istəyiriksə, innovasiya xarakterli sahibkarlıqda əlavə dəyər vergisinin diferensiallaşdırılması, 18 faizdən aşağı həddə müəyyən olunması çox vacibdir. Bir də, uşaqlarla, kitabla bağlı bir sıra ölkələrdə olduğu kimi, Azərbaycanda da əlavə dəyər vergisinin 18 faizdən aşağı qoyulmasını məqbul hesab edirik. Ona görə, buna necə baxıldığını bir sual kimi qaldırırıq.

Müraciətlərin bir hissəsi isə ilkin sahibkarlıq fəaliyyəti ilə məşğul olanlarla bağlıdır. İnsanlar hansısa məbləğdə vəsait yığırlar, ilkin sahibkarlıqla məşğul olmaq istiqamətində addımlar atanda, – bizə gələn müraciətlərdən də görünür, – bir sıra hallarda yaxşı dəstək alırlar, bu, yoxlamaların aradan qaldırılması, onların sayının qısa müddətdə fantastik bir rəqəm, min dəfə aşağı düşməsi ilə bağlıdır. Biz bunu müsbət qiymətləndiririk. Amma hesab edirəm ki, bir sıra hallarda ilkin sahibkarlıqla məşğul olanlara hələ addım atmadan müxtəlif məbləğlər qoyurlar, o da ilkin mərhələdə xeyli dərəcədə problem yaradır. Ona görə biz təklif edərdik ki, araşdırma aparılsın, mümkünsə, prioritet sahələr üzrə ilkin sahibkarlıqla məşğul olan insanların bir müddət, məsələn, bir il, sahədən asılı olaraq

iki il müddətinə vergidən azad olunması istiqamətində addımlar atılsın. Hesab edirəm ki, bu, həmin sahədə sahibkarlığın dairəsinin xeyli dərəcədə genişləndirilməsinə kömək edəcək. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Biz keçən dəfə də iclasda dedik ki, Vergilər Nazirliyinin apardığı bu islahatlar inqilabi islahatlardır. Bu prosesi təzə başlayıblar, onu birbaşa yükləməyə çalışmayaq. İslahatlar tədricən getməlidir. Hamısını yükləyəndə məsələlər bir az çox olur. Çingiz Qənizadə.

**Ç.Qənizadə**. Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli qonaqlar! Mən ötən iclasda da Vergi Məcəlləsində edilən dəyişikliklər və ümumiyyətlə, Vergilər Nazirliyində aparılan islahatlarla bağlı öz xoş fikirlərimi bildirmişəm və onlara bir daha bu istiqamətdə uğurlar diləyirəm. Cənab Sədr, haqlı olaraq qeyd elədiniz ki, bu islahatlar yeni başlayıb və biz yeni-yeni, vergi yükünün azaldılması və müəyyən islahatlarla bağlı təkliflərin şahidi olacağıq. Amma indi hörmətli Ziyad müəllim çıxış etdi, təkliflərimizin nəzərə alınmasını qeyd elədi. Mən ötən iclasda bir təklif vermişdim və bir daha o təklifi yada salmaq istəyirəm.

Vergi Məcəlləsinin 13.2.7-ci maddəsi özündə vergi ödəyicisinin ailə üzvlərinin siyahısını ehtiva edir. Bu siyahıda, istəyirəm, qısaca qeyd edim, ər-arvadlar, valideynlər, övladlar, övladlığa götürülmüş şəxslər, vərəsələr, doğma və ögey bacı-qardaşlar, bacı-qardaşların övladları, – yəni kimsə öz bacısı oğluna, yaxud qardaşı oğluna vergidən azad olunmasını nəzərdə tutan hansısa sənəd verir, – ər-arvadların bacıları, qardaşları, bacılarının ərləri və sair, bunlar hamısı sadalanıb. Amma burada nəvənin adı yoxdur. Mən niyə bunun üzərində dururam, çünki regionlarda bizə çoxsaylı müraciətlər olur. Mən hüquqşünasam,

hüquq mühafizə, ədliyyə orqanları ilə vətəndaşlar arasında müəyyən problemlər olanda müraciət eləyirlər və onlara izah edirik, başa salırıq ki, qanunda boşluq var. Baba notariat kontorlarına gedib nə isə əməliyyat keçirərkən vergi ödəyicisi kimi onu qarşılayan notariuslar haqlı olaraq qeyd eləyir ki, Vergi Məcəlləsinin 13.2.7-ci maddəsində dəyişiklik olunmalıdır. Mən yenə də təklif edirəm, biz şərq ölkəsiyik, bizim mentalitet var, bu gün kənd yerlərində bir damın altında on illərlə yaşayan babalar, nəvələr var. Necə ola bilər ki, nəvə, yaxud da baba ailə üzvlərinin sırasında olmasın. Ögey bacı-qardaşlar, qaynın, ögey baldızın uşaqları və sair sadalanır. Amma doğma övlada münasibət fərqlidir. Mən bilmirəm, indi Ziyad müəllim ümumi açıqlama verdi, bu məsələ öz həllini tapıb, yaxud tapmayıb. Çox istərdim ki, Vergilər Nazirliyi, həm də bizim müvafiq komitə bu məsələni müzakirə eləsin və bu təklifin reallaşması üçün addımlar atılsın. Sağ olun.

**Sədrlik edən**. Sağ olun. Əgər başqa təklif yoxdursa, xahiş edirəm, indi layihəni əvvəlcə ikinci oxunuşda əsas kimi qəbul eləməliyik. Qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Mikayıl müəllim, bəzi suallar oldu, ya Siz, ya da Ziyad müəllim, kim cavab verəcək?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, Mikayıl Cabbarov.

**M.Cabbarov**, *Azərbaycan Respublikasının vergilər naziri.*

Hörmətli cənab Sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, hörmətli Milli Məclis üzvləri! Söylənilən fikirlərə görə təşəkkür edirəm. Mən vaxtı çox almamaq üçün səslənən fikirlərlə bağlı çox praktik və qısa şəkildə bir daha arayış vermək istərdim. 106-cı maddəyə elmin təhsil, mədəniyyət, səhiyyə və idmanla birlikdə daxil edilməsini biz işçi qaydasında müzakirə elədik, bununla bağlı Elmlər Akademiyasının hörmətli prezidentinin də müraciəti olmuşdu. Biz birlikdə bunu razılaşdırılmış məsələ hesab edirdik və son mətndə də elə gedir.

Qüdrət müəllimin qeyd etdiyi xeyriyyəçilik fəaliyyəti ilə bağlı. Ümumiyyətlə, ilk dəfədir ki, biz bu tip azadolmaları Vergi Məcəlləsinə daxil edirik. Burada həm mexanizmlərin çalışması, həm də ümumilikdə mövcud dəyişikliklər nəzərə alınmaqla büdcə bazasının hesablanması ilə əlaqədar hazırda əlavə daha geniş azadolmaların təqdim edilməsi mümkün olarsa, biz buna növbəti büdcə prosesində dönməyi düşünürük.

Hörmətli Çingiz müəllimin qeyd etdiyi məsələ barədə, düşünürəm ki, burada, ola bilsin, sadəcə, bəzi semantik anlaşılmazlıqlar var. Məsələ ondan ibarətdir ki, biz redaktədə baba və nənə ifadəsini istifadə etdiyimizə görə, məntiqlə bu, nəvələri də əhatə edir, çünki baba və nənə olmaq üçün nəvə olmalıdır. Amma biz işçi qaydasında buna bir də baxarıq. Çünki burada niyyət eynidir. İstənilən halda burada mübahisə üçün yer görmürük.

Müzakirələrdə iştirak edən bütün hörmətli həmkarlara bir daha dərin təşəkkürümüzü bildiririk. Bu bizə də imkan verdi ki, Vergi Məcəlləsində dəyişiklikləri mümkün qədər daha keyfiyyətli edək və dövlət başçısı tərəfindən qarşımıza qoyulan məqsədlərə xidmət edən bir sənəd səviyyəsinə çatdırılması üçün birlikdə çalışaq. Təşəkkür edirəm.

**Sədrlik edən**. Çox sağ olun. Hörmətli millət vəkilləri, Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli millət vəkilləri, mən çıxışımın əvvəlində dedim ki, qanun layihələri büdcə zərfi ilə paralel getməlidir. Suallar oldu, cavablar verildi, başqa sual yoxdur. Əgər etiraz yoxdursa, üçüncü oxunuşda da qəbul eləyək. Xahiş edirəm, Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsinə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, üçüncü oxunuşda qəbul edildi.

Növbəti 9-cu məsələ İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədədir. Buyursun Azay Quliyev.

**A.Quliyev,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, hörmətli millət vəkilləri! Müzakirənizə təqdim olunan qanun layihəsi cənab Prezident tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunubdur və təklifə əsasən İnzibati Xətalar Məcəlləsində müəyyən dəyişikliklər nəzərdə tutulur. 43.1-ci maddədən 450.1 rəqəmləri çıxarılır və 450-ci maddə ləğv edilir. İcazənizlə, mən dəyişikliklər barədə bir az ətraflı məlumat verərdim.

Bildiyimiz kimi, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 450-ci maddəsinə əsasən aksiz markası ilə markalanmalı olan məhsulların, malların belə marka olmadan satılmasına, satış məqsədi ilə saxlanılmasına, istehsal binasının hüdudlarından kənara çıxarılmasına, belə məhsulların, malların nağd qaydada alğı-satqısına görə inzibati məsuliyyət müəyyən edilmişdir. Mövcud qanun pozuntuları aşkar edildiyi hallarda dövlət vergi orqanları tərəfindən İnzibati Xətalar Məcəlləsinin 450.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta haqqında iş üzrə protokol tərtib edilərək baxılması üçün aidiyyəti üzrə rayon, şəhər məhkəmələrinə göndərilir. Qeyd olunan pozuntuya görə tərtib olunmuş inzibati xətanın nəticələrinə dair protokollar üzrə müvafiq məhkəmələrin qərarlarına əsasən tətbiq edilmiş inzibati cərimələr vergi orqanları tərəfindən həmin vergi ödəyicilərinin şəxsi hesab və vərəqələrinə işlənilir. Göründüyü kimi, İnzibati Xətalar Məcəlləsinin 450-ci maddəsindəki pozuntunun

vergi orqanları tərəfindən müvafiq protokol tərtib edilməklə rəsmiləşdirilməsi və məhkəməyə təqdim edilməsi vergi inzibatçılığı baxımından əlavə yük yaratmaqla yanaşı, məhkəmələrin də iş yükünün lüzumsuz şəkildə artmasına, habelə vaxt itkilərinə və əlavə maliyyə vəsaitlərinin xərclənməsinə səbəb olur.

Bundan başqa, bildiyimiz kimi, yeni İnzibati Xətalar Məcəlləsi qəbul edildikdən sonra cənab Prezident bu məcəllənin təsdiqi ilə bağlı 2016-cı il 15 fevral tarixli fərman imzalamışdır. Fərmanın 5-ci maddəsində qeyd edilir ki, İnzibati Xətalar Məcəlləsinin 40.0.3-cü maddəsinə müvafiq olaraq müəyyən edilsin ki, həmin məcəllənin 400, 400.2, 450.2, 461, 467 və 545-ci maddələri ilə nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikası Vergilər Nazirliyi baxır. Təklif olunan dəyişikliyə əsasən aksiz markası ilə markalanmalı olan malın belə marka olmadan satılmasına, satış məqsədi ilə saxlanılmasına, istehsal binasının hüdudlarından kənara buraxılmasına görə cəza tədbiri olaraq inzibati cərimə deyil, maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulur.

Hörmətli millət vəkilləri, yuxarıdakılara əsasən, aksiz markası ilə markalanmalı olan məhsulların, malların belə marka olmadan satılmasına, satış məqsədi ilə saxlanılmasına və ya istehsal binası hüdudlarından kənara çıxarılmasına, belə məhsulların, malların nağd qaydada alğı-satqısına görə inzibati cərimələri müəyyən edən müddəaların İnzibati Xətalar Məcəlləsindən çıxarılması və qeyd olunan pozuntulara münasibətdə maliyyə sanksiyasının tətbiqini nəzərdə tutan müddəanın Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavə edilməsi təklif olunur. Hesab edirəm, bu əlavələr və dəyişikliklər kifayət qədər əhəmiyyətlidir və hörmətli həmkarlarımdan təklif olunan qanun

layihəsinə səs vermələrini xahiş  edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsi ikinci oxunuşdadır, əvvəl əsas kimi qəbul etməliyik. Xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Xahiş edirəm, ikinci oxunuşda qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, ikinci oxunuşda da qəbul edildi.

Etiraz yoxdursa, üçüncü oxunuşu keçirək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə üçüncü oxunuşda da münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 10-cu məsələ. "Büdcə sistemi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi, ikinci oxunuş. Xahiş edirəm, qanun layihəsinə ikinci oxunuşda əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi Büdcə sistemi haqqında qanun layihəsi. Buyursun Ziyad Səmədzadə. İkinci oxunuşdur, xahiş edirəm, konkret, qısa.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli cənab Baş nazir, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri. Oqtay müəllim, Büdcə sistemi haqqında qanun layihəsi cənab Prezident tərəfindən təqdim olunmuşdur. Komitədə müzakirələr zamanı müəyyən təkliflər oldu, o təklifləri də biz müzakirə etdik. Prinsipial xarakter daşımayan, texniki xarakterli dəyişikliklər var ki, onları da biz, əlbəttə, razılaşdırdıq. Ona görə də millət vəkillərindən xahiş edərdim ki, bu qanun layihəsinə müsbət münasibət bildirsinlər.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, xahiş edirəm, qanun layihəsinə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Əgər etiraz yoxdursa, suallar olmayıb, xahiş edirəm, üçüncü oxunuşda da münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 11-ci məsələsi "Dövlət borcu haqqında" Qanunda dəyişikliklər edilməsi barədədir. Bu da ikinci oxunuşdur. Xahiş edirəm, ikinci oxunuş olduğu üçün ilk növbədə qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

Səs vermədi 0
İştirak edir 106
Nəticə: Qəbul edildi

Çox sağ olun, qəbul edildi.

Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, millət vəkilləri. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli sərəncamı ilə Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün strategiya təsdiq edilmişdir. Həmin strategiyaya əsasən qarşıdan gələn strateji dövrdə, 2018–2025-ci illərdə dövlət borcunun idarə olunması sahəsində əsas məqsəd gələcək illər üçün dövlət borcunun dayanıqlığını təmin etməklə ÜDM-ə nisbətinin tədricən azaldılmasına nail olmaqdır. Komitədə xüsusi olaraq vurğulandı ki, Azərbaycan dövlətinin borcalma siyasəti ölkənin milli maraqlarına kifayət qədər cavab verir. Bu məsələ daim cənab Prezidentin nəzarəti altındadır və aparılan iqtisadi islahatlar, inkişaf sahəsində əldə ediləcək uğurlar qarşıdakı dövrdə də dövlət borcunun ÜDM-ə nisbətinin azalmasına imkan verəcəkdir.

Cənab Prezident tərəfindən təqdim edilmiş qanun layihəsi yeni münasibətləri tənzimləyir. Qanun layihəsi komitədə ətraflı müzakirə olundu, dövlət büdcəsinin müzakirəsi zamanı da mövzu ətrafında kifayət qədər fikir mübadiləsi aparıldı. Qanunda cəmi bir texniki xarakterli dəyişiklik var, ona görə də millət vəkillərindən bu qanun layihəsinə səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Sağ olun. Burada texniki dəyişiklikdir. Buyurun, Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, Oqtay müəllim. Mən hökumət üzvlərinin burada olmasından istifadə edərək bir məsələyə toxunmaq istəyirəm. Doğrudan da, bütün millət vəkillərini narahat edir ki, əslində, büdcə gəlirlərinin 10 faizindən də artıq məbləği dövlət borclarının qaytarılmasına xərclənir. 2 milyard 335 milyon manat. Bu kifayət qədər böyük rəqəmdir. Hesab edirəm, biz, əslində, qanunvericiliklə tənzimləyə bilirik ki, büdcənin xərclərinin təqribən hansı hissəsi, məsələn, iki-üç faizi dövlət borclarının qaytarılmasına sərf oluna bilər. Qanunvericilik qaydasında bu məhdudiyyəti qoymalıyıq. Bir də hesab edirəm ki, dövlət zəmanəti ilə götürülən borclara dair müqavilələr Milli Məclisdə təsdiq olunmalıdır. Ona görə ki, "Dövlət büdcəsi haqqında" Qanunu biz qəbul edirik. Sonradan əhalidən yığılan vergilərin hesabına, borcların qaytarılmasına biz məsuliyyət daşıyırıq, biz qanun qəbul edirik. Ona görə də o müqavilələri parlamentdə təsdiq etməliyik ki, həmin o borcların götürülməsi nə dərəcədə əsaslıdır, nə dərəcədə ehtiyac var. Düşünürəm ki, bu daha ədalətli olar. Bir daha söyləyirəm, ona görə ki, o borcların qaytarılmasında biz iştirak edirik. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Hökumətin olmağından istifadə edib hərəniz bir əlavə məsələ deyirsiniz. Xahiş edirəm, məsələ ilə əlaqədar danışaq. İkinci oxunuşda, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Xahiş edirəm, üçüncü oxunuşa da münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

3 qanunumuz qaldı. Hökumət üzvləri yəqin ondan sonra gedə biləcəklər.

Gündəliyin 12-ci məsələsi "Sosial sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. İkinci oxunuş. Xahiş edirəm, qanun layihəsinə ikinci oxunuşda əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Hadi Rəcəbli buyursun.

**H.Rəcəbli.** Hörmətli Oqtay müəllim, hörmətli icra hakimiyyətinin rəhbər işçiləri! Bu layihənin 3 əsas məziyyətini parlamentdə müzakirə etdik və deputat həmkarlarımız bu addıma, düzəlişlərə görə möhtərəm Prezidentimizə dəfələrlə minnətdarlıqlarını bildirdilər. Mahiyyət nədən ibarətdir?

Əsas məqsəd sahibkarların, əsasən, vergi yükünün azalmasından ibarətdir. İkincisi, məşğulluğun leqallaşması üçün çox vacib şərtlərdən biridir. Üçüncüsü, işçilərin sosial müdafiəsinin güclənməsinə xidmət edən layihədir.

Oqtay müəllim, burada bir düzəliş var, mən istəyirəm, onu diqqətə çatdıram. Bu düzəliş bizim hörmətli Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri ilə birgə razılaşdırılıb. Bu düzəlişi mən oxumaq istəyirəm, bizim deputat həmkarlarımız bilsinlər və sonra məsləhət olsa, biz o düzəlişi qəbul edərik, çünki bu, ümumi işin xeyrinədir.

Deməli, burada 14.5.1-ci maddədə belə bir fikir var: "Sahibkarlıq fəaliyyəti üzrə minimum əmək haqqının tikinti və ticarət sahələrində 50 faizi, digər sahələrdə 20 faizi miqdarında ödənilməsi". Bununla əlaqədar bizim əlimizdə kifayət qədər materiallar var, biz bunu geniş müzakirə etmişik. Belə qərara gəlmişik ki, bu müddəa əvvəlki qanunda olduğu kimi, 2019-cu ildə də qalsın və onun icrasına 2020-ci ildən başlanılsın. Yəni burada bir maddəyə olan dəyişiklikdir. Qanunun digər maddəsində sahibkardan büdcəyə sığorta haqqı kimi tutulan vəsaitlə bağlı bilavasitə göstərilmişdir ki, onlar Bakı şəhərində 100, Sumqayıt və Gəncə şəhərlərində 90, respublika tabeli digər şəhərlərdə 80, rayon mərkəzlərində, digər şəhərlərdə və qəsəbələrdə 60, kənd yerlərində 50 faiz miqdarında məcburi dövlət sığorta haqqı ödəyirlər. Biz bu qaydanı 2019-cu ildə necə var, o cür saxlayırıq. 2020-ci il yanvarın 1-dən biz bunu da ləğv edirik, başqa formada həyata keçiririk. Beləliklə, bütövlükdə layihə bayaq sadaladığım məziyyətlərinə görə çox önəmlidir və deputat həmkarlarımı buna səs verməyə çağırıram.

**Sədrlik edən.** Çox sağ olun. Başqa təklif yoxdursa, xahiş edirəm, ikinci oxunuşda qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, ikinci oxunuşda qəbul edildi.

Bir şeyi də nəzərinizə çatdırım ki, sosial sığorta ilə əlaqədar Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən də qanun layihələri hazırlanır, yəqin bu yaxınlarda o dəyişikliklər də gələcək, sonra onları da qəbul edəcəyik. Xahiş edirəm, əgər etiraz yoxdursa, üçüncü oxunuşda da qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

13-cü məsələ "İşsizlikdən sığorta haqqında" Qanunda dəyişiklik edilməsi haqqındadır. O da ikinci oxunuşdur. Xahiş edirəm, qanun layihəsinə ikinci oxunuşda əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul olundu.

Buyursun Hadi Rəcəbli.

**H.Rəcəbli**. Hörmətli Oqtay müəllim, burada bir məqamdan söhbət gedirdi, yəni işsizlikdən sığorta bilavasitə həm işəgötürən, həm də işçi tərəfindən 0,5 faiz civarında ödənəcək. Hər iki əməliyyatı bilavasitə Vergilər Nazirliyi icra edəcək. Bax, bu bircə dəyişiklikdir, deputat həmkarlarım da bunu yüksək səviyyədə qəbul etdilər. Ona görə düşünürəm ki, buna səs vermək olar.

**Sədrlik edən.** Çox sağ olun. Xahiş edirəm, ikinci oxunuşda qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Heç bir sual olmadığı üçün xahiş edirəm, qanun layihəsinə üçüncü oxunuşda da münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Nəhayət, bu qəbildən sonuncu məsələ "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. İkinci oxunuşdur. Xahiş edirəm, qanun layihəsinə ikinci oxunuşda əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul olundu.

Buyursun Hadi Rəcəbli.

**H.Rəcəbli.** Hörmətli Oqtay müəllim, bu sənəddə iki əsas məqam diqqəti cəlb etdi və deputat həmkarlarım bunu yüksək səviyyədə qiymətləndirdilər. Birinci ondan ibarət idi ki, biz 2006-cı il yanvarın 1-nə kimi əmək stajı 25 il olmayan işçilərə yaşı çatdıqda güzəşt kimi 25 il staj hesablamağa başlayırıq və bunun hesabına gələn ildən etibarən çox sayda insanlara yaşa görə əmək pensiyası təyin edə biləcəklər. Bu, olduqca önəmli bir addımdır və bununla bağlı həm də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin üzərinə böyük maliyyə yükü düşür. Hesab edirəm, bütövlükdə Dövlət Sosial Müdafiə Fondundan 340 milyon manata qədər əlavə vəsait ayrılacaq ki, bu da hissə-hissə həmin qrup insanlara da şamil olunacaq. Bir məqamı da biz vurğuladıq ki, büdcədənkənar vəsaitlər hesabına edilən əlavələr və digər ödənişlər dövlət qulluğunda olan, güzəştli pensiya ala bilən adamlara hesablanmasın. Bu, ədalət prinsiplərinə görə çox önəmli mə-

qamdır. Bunu da deputat həmkarlarımız qəbul etdilər. Düşünürəm ki, hər iki məqam önəmlidir və "Əmək pensiyaları haqqında" Qanuna edilən bu əlavələrə və dəyişikliklərə səs vermək olar. Deputat həmkarlarımı səs verməyə çağırıram.

**Sədrlik edən**. Çox sağ olun. Əgər başqa təklif yoxdursa, xahiş edirəm, qanun layihəsinə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, ikinci oxunuşda qəbul edildi.

Xahiş edirəm, üçüncü oxunuşda da münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli millət vəkilləri, mən hesab edirəm ki, biz hökumətlə birlikdə büdcə zərfinə daxil olan sənədlərin çox səmərəli müzakirələrini apardıq, çox faydalı müzakirələr oldu və bu müzakirələrin nəticələrini də görmək üzrəyik. Mən ilk növbədə Baş nazir cənab Novruz Məmmədova öz

dərin minnətdarlığımı bildirirəm ki, həm büdcə zərfinin müzakirələrinə başlayanda, həm də üçüncü oxunuşda bütün komandası ilə Milli Məclisə gəlib. Bir daha hamınızı, həm hökumət üzvlərini, həm də millət vəkillərini təbrik edirəm. Belə bir vacib sənədi qəbul etdik və bu sənədin həyata keçirilməsi uğrunda fəaliyyətdə hamınıza uğurlar arzulayıram. Çox sağ olun!

Hökumət üzvləri artıq gedə bilərlər. *(Alqışlar.)*

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini* ***Ziyafət Əsgərov*** *sədrlik edir*

**Sədrlik edən.** Gündəliyin növbəti məsələsi. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi barədə. Azay müəllim, buyurun.

**A.Quliyev.** Təşəkkür edirəm. Hörmətli Ziyafət müəllim, hörmətli həmkarlar! Müzakirənizə təqdim edəcəyim qanun layihələri Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında daxil olmuşdur. Dəyişikliklər, əsasən, Avropa Şurasının Ekspertlər Komitəsinin 2014-cü ildə Azərbaycanda apardığı 4-cü mərhələ qiymətləndirmə nəticəsində təqdim etdiyi tövsiyələrdən irəli gəlir. Xatırladım ki, Avropa Şurasının Ekspertlər Komitəsi, əsasən, çirkli pulların yuyulmasına qarşı tədbirlər və terrorizmin maliyyələşdirilməsinin qiymətləndirilməsi üzrə ixtisaslaşmış orqandır.

Bütövlükdə, təqdim olunan dəyişiklik Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin effektivliyinin artırılmasını, habelə bu

inzibati xəta üzrə icraatın sürətləndirilməsini ehtiva edir. Mahiyyəti üzrə baxsaq, qeyd etməliyik ki, İnzibati Xətalar Məcəlləsinin 598-ci maddəsinin pozulmasına görə inzibati xətalara rayon, şəhər məhkəmələri tərəfindən deyil, inzibati xəta üzrə protokol tərtib etmiş orqan tərəfindən baxılması təklif edilir. Əsas mahiyyət bundan ibarətdir. Onu da qeyd etməliyəm ki, vəkillər üçün nəzarət orqanı olan Vəkillər Kollegiyasının və auditor xidmətləri göstərən şəxslər üçün nəzarət orqanı olan Auditorlar Palatasının inzibati orqanlar olmadıqları nəzərə alınaraq, həmin şəxslərə münasibətdə İnzibati Xətalar Məcəlləsinin 598-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalara rayon, şəhər məhkəmələri tərəfindən baxılması təklif edilir. Hörmətli həmkarlarıma layihəyə səs verməyi təklif edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əgər çıxış etmək istəyən yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Ziyad Səmədzadə, buyurun.

**Z.Səmədzadə.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri! Bilirsiniz ki, cinayət yolu ilə qazanılmış pullarla əlaqədar olaraq qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır. Mən bir az çaşdım.

Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri! Qanun layihəsi "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi ilə əlaqədar olaraq hazırlanmışdır. Bilirsiniz ki, sahibkarların yoxlanması 2021-ci il yanvar ayının 1-nə kimi dayandırılmışdır. Amma təklif olunur ki, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə məqsədi ilə yoxlamalar istisna olunmaqla bu qanunda dəyişiklik edilsin.

**Sədrlik edən.** Sağ olun. Çıxış etmək istəyən varmı? Yoxdur, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliy-

yələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə. Azay müəllim, buyurun.

**A.Quliyev.** Təşəkkür edirəm, hörmətli Ziyafət müəllim. Təklif olunan bu qanun layihəsi də Avropa Şurasının Ekspertlər Komitəsinin qeyd etdiyim tövsiyəsinə əsasən hazırlanıbdır. Qanun layihəsi, əsasən, "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi ilə bağlıdır. Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 8 oktyabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsinə dəyişikliklər edilmişdir. Edilən dəyişikliyə əsasən baş idarənin vəzifələrinə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqədar cinayətlərin mərkəzləşdirilmiş statistikasının elektron formada aparılmasını təşkil etmək, həmin cinayətlərlə bağlı statistik məlumatların toplanması, emalı və ötürülməsi üzrə informasiya sisteminin fəaliyyətini təmin etmək əlavə edilmişdir. Layihəyə əsasən nəzarət orqanlarının və maliyyə monitorinqi orqanının bu statistik məlumatlardan istifadə edə bilməsi təklif edilir. Xahiş edirəm, dəstəkləyəsiniz. Sağ olun.

**Sədrlik edən.** Buyurun, əgər çıxış etmək istəyən yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Buyurun, Azay müəllim.

**A.Quliyev.** Təşəkkür edirəm. Hörmətli Ziyafət müəllim, dəyərli həmkarlarım! Bu təklif də Avropa Şurasının Ekspertlər Komitəsinin verdiyi tövsiyələr əsasında hazırlanıbdır və cənab Prezident tərəfindən qanunvericilik təşəbbüsü qaydasında daxil olubdur. Dəyişiklik, əsasən, aşağıdakından ibarətdir.

“Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının qanun layihəsi cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin səmərəliliyinin artırılması, habelə bu cinayətlərin qarşısının alınması, həmin cinayətlərin açılması və onları hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi məqsədi ilə təklif edilir. Bu məqsədə nail olmaq üçün cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil edilməsi və hüquqi şəxsin yaradılması əməliyyat-axtarış tədbirlərinin cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma və terrorçuıluğu maliyyələşdirmə, korrupsiya cinayətləri və iqtisadi sahədə olan digər cinayətlərə münasibətdə də tətbiq edilməsi təklif olunur. Hörmətli həmkarlarımdan qanun layihəsinə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Çıxışlar olacaqmı, təklif varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, onda xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi barədə qanun layihəsidir. Buyurun, Azay müəllim.

**A.Quliyev.** Təşəkkür edirəm. Hörmətli Ziyafət müəllim, hörmətli həmkarlar! Bu layihə qeyd etdiyim vahid paketdə təqdim olunan təkliflərdən sonuncusudur. Bu da, Avropa Şurasının Ekspertlər Komitəsinin tövsiyəsi əsasında hazırlanıbdır. Hesab edirəm ki, bütün təklif olunan 4 əlavə və dəyişiklik bütövlükdə Azərbaycan qanunvericiliyinin beynəlxalq standartlara uyğunluğunu təmin etməklə yanaşı, götürdüyümüz öhdəliklərin icrası ilə bağlı yeni hüquqi mühit yaradır. Əlbəttə, bizim bu istiqamətdə apardığımız mübarizəyə gələcəkdə öz töhfəsini verəcəkdir.

Konkret maddəyə gəldikdə isə, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı istintaq orqanlarına daxil olmuş məlumatların cinayət işinin başlanması üçün kifayət qədər əsasların olmasının istintaq orqanlarının özləri tərəfindən yoxlanıl-

ması imkanının verilməsi məqsədi ilə təklif edilir. Bu məqsədlə maliyyə əməliyyatları, bank hesablarının vəziyyəti və vergilərin ödənilməsi barədə məlumatlar daxil olmaqla, şəxsi, ailə, dövlət, kommersiya və ya peşə sirrini təşkil edən məlumatların əldə edilməsi prosessual məcburiyyət tədbirinin cinayət işinin başlanılmazdan əvvəl də tətbiq edilə bilməsi hüququnun verilməsi təklif edilir. Eyni zamanda, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 215-ci maddəsində müvafiq dəyişiklik edilməsi təklif olunur.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli fərmanına əsasən cinayət işləri müvafiq olaraq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən başlandıqda və həmin cinayətlərin ibtidai istintaqı zamanı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 193-1-ci maddəsində göstərilən cinayətin əlamətləri aşkar olunduqda göstərilən cinayətlərə dair işlər üzrə ibtidai istintaq müvafiq prokurorun qərarı ilə bu işi başlamış Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən aparılır. Bunu nəzərə alaraq, ibtidai istintaqın prokurorluq tərəfindən aparıldığı hallarda müvafiq dəyişiklik edilməsi təklif olunur. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Nə təklif olacaq?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ Azərbaycan Ordusunun 4 nəfərdən ibarət hərbi heyətinin "qərargah zabiti" və "hərbi müşahidəçi" qismində Birləşmiş Millətlərin missiyasının komandanlığı altında Cənubi Sudan Respublikasında yerləşdirilməsinə və missiyada iştirak etməsinə razılıq verilməsi haqqında qərar layihəsidir.

Hörmətli deputat həmkarlarım, icazənizlə, mən bu barədə məlumat verim. Əvvəla, deyim ki, bu qərar layihəsi, sözün həqiqi mənasında, çox ciddi və önəmlidir. Möhtərəm Prezident tərəfindən təqdim olunub. Siz bilirsiniz ki, biz indiyə qədər dünyanın bir çox ölkələrində sülhməramlı missiyalarda iştirak etmişik və bu gün də iştirak edirik. Kosovoda, İraqda və bu gün Əfqanıstanda bizim 120 nəfərdən ibarət taqımımız sülhməramlı əməliyyatlarda iştirak edir. Bu əməliyyatlara NATO komandanlığı rəhbərlik edir. Bizim taqımımız isə NATO komandanlığı altında Türkiyə Silahlı Qüvvələrinin taborunun tərkibində xidmət göstərir.

Əlbəttə, bu da Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının mandatı altında həyata keçirilir. Amma bizə təqdim olunan qərar layihəsində bu məsələni, bu missiyanı artıq Birləşmiş Millətlər Təşkilatı öz üzərinə götürür. Yəni bilavasitə Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 2011-ci il 8 iyul tarixli qətnaməsi ilə bu missiya həyata keçirilir. Bu missiyanın fəlsəfəsi nədən ibarətdir? Biz nə üçün buna qoşuluruq?

Mən artıq qeyd etdim, bir çox ölkələrdə biz buna qoşulmuşuq və bir daha bu missiyaya qoşulmağımızda məqsəd ondan ibarətdir ki, Azərbaycan Prezidenti bir daha Azərbaycan dövlətinin sülh məramını, sülhsevər siyasətini, humanist mahiyyətini ortaya qoyub. Biz, həqiqətən, dünyanın bütün ölkələrində sülh, sabitlik, əmin-amanlıq olmasını istəyirik. Azərbaycan dövləti, onun Prezidenti də bu məsələdə çox maraqlıdırlar, çox istəyirlər ki, bu məsələ Azərbaycan Respublikasının Milli Məclisində təsdiq olunsun və bizim 4 nəfərdən ibarət hərbçimiz o missiyada iştirak etsin. Bu, eyni zamanda, o deməkdir ki, biz Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində təsbit olunmuş məqsəd və vəzifələrə sadiqliyimizi bir daha təsdiq edirik. Azərbaycan dövləti həm sülhsevərliyini, həm sülh məramlılığını və humanistliyini, həm də Birləşmiş Millətlər Təşkilatının özünün Nizamnaməsində qarşıya qoyduğu məqsəd və vəzifələrə sadiqliyini göstərir.

Amma mən fürsətdən istifadə edib, eyni zamanda, başqa bir məsələni də demək istəyirəm. Biz də, öz növbəsində, çox istərdik ki, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Azərbaycana münasibətdə qəbul etdiyi qərarların icrasına daha məsuliyyətlə, daha ciddi yanaşsın. Ona görə sizdən xahiş edirəm, bu qərar layihəsinə müsbət münasibət bildirəsiniz.

Çıxış etmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Buyurun, xahiş edirəm, məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi. Buyursun Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə xanım Naxçıvanlı.

**A.Naxçıvanlı,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Təşəkkür edirəm, Ziyafət müəllim. Dəyərli həmkarlarım, 2018-ci il oktyabrın 18-də cənab Prezidentimiz tərəfindən "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə təşəbbüs irəli sürülmüşdür. Qanunvericilik təklifi uyğunlaşdırma xarakteri daşıyır. Təklif olunan layihəyə görə, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunun 1-ci maddəsinin on ikinci abzasında "18 yaşınadək hər iki valideynini itirmiş, habelə hər iki valideyninin" sözləri "valideynlərini itirmiş, habelə valideyn" sözləri ilə əvəz edilir.

Qeyd edim ki, hazırda qanunun 1-ci maddəsinin on ikinci abzasındakı anlayışın 18 yaşına çatdıqdan sonra valideyn dəstəyindən məhrum olmuş və dövlət ali təhsil müəssisələrində əyani formada təhsil alan şəxslərə aid edilməməsi Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin 1-ci hissəsi ilə uyğunsuzluq təşkil edirdi. Məhz bu baxımdan, edilməsi nəzərdə tutulan dəyişiklik

həmin qanunun Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 2017-ci il 25 yanvar tarixli qərarında təsdiq olunan normanın hüquqi mövqeyinə uyğunlaşdırılması məqsədi daşıyır. Yəni təklif olunan layihəyə görə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunun 1-ci maddəsinin 12-ci abzasındakı anlayış dövlət ali təhsil müəssisələrində əyani formada təhsil alan valideyn dəstəyindən məhrum olmuş şəxslərə 18 yaşına çatdıqdan sonra da aid ediləcəkdir. Həmkarlarımdan xahiş edirəm, qanun layihəsinə səs versinlər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Buyurun, təkliflər varmı, çıxış varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi. Buyurun, Azay müəllim.

**A.Quliyev.** Təşəkkür edirəm, Ziyafət müəllim. Hörmətli həmkarlar, bilirsiniz ki, biz 2018-ci ilin 29 iyununda Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinə müvafiq dəyişikliklər etdik və bu gün diqqətinizə təqdim olunan qanun layihəsi də məhz uyğunlaşdırma xarakteri daşıyır. Bilirsiniz ki, Məcəlləyə edilən dəyişikliyə, xüsusilə 21.1 və 21.2-ci maddələrə, əsasən, Azərbaycanda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduqları yer üzrə qeydiyyata alınmaları üçün müddət 10 gündən 15 gün artırılmışdır. Bunun əsas mahiyyəti ondan ibarətdir ki, ölkəyə gələn turistlərin sayını artıraq və onlar üçün müvafiq şərait yaradaq. İndi, sadəcə olaraq, Miqrasiya Məcəlləsinin müddəalarını biz bu Əsasnaməyə uyğunlaşdırırıq. Ona görə də mən vaxtınızı çox almadan sizi bu təkliflərə və layihəyə səs verməyə dəvət edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əflatun Amaşov.

**Ə.Amaşov.** Hörmətli Ziyafət müəllim, hörmətli deputatlar, hörmətli media nümayəndələri! Mən qanuna edilən dəyişiklikləri müzakirə edərkən bir məsələyə toxunmaq istəyirəm. Layihədə əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin olduqları yer üzrə qeydiyyata alınması üçün müddət 10 gündən 15 günə artırılır. Bunu müsbət qiymətləndirirəm. Ancaq diqqəti bir məqama yönəltmək istəyirəm. İl ərzində Azərbaycana gələn xarici ölkə vətəndaşlarının kifayət qədəri Gürcüstanda yaşayan azərbaycanlılardır. Qonşu dövlətdə yaşayan 300 minə yaxın soydaşımızın, mən deyərdim ki, hər birinin ailəsi Azərbaycanla sıx surətdə bağlıdır. Tam əksəriyyəti burada bu və ya digər formada daşınmaz əmlaka sahibdirlər. Elə ailələr də var ki, ər bir dövlətin, həyat yoldaşı isə digər dövlətin vətəndaşıdır. Bəzi hallarda onların uşaqlarında da bu hallar müşahidə olunur.

Təklif edərdim ki, Azərbaycandan kənarda yaşayan soydaşlarımız üçün, əsasən də, Gürcüstanda yaşayanlar üçün nəzərdə tutulan müddət daha çox olsun. Çünki bir də görürsən ki, iki qoca valideyn paylı-püşlü öz övladına, doğmalarına baş çəkməyə gəlir. Bir gün gecikəndə 400 manata qədər cərimə ödəməli olurlar. Buna bənzər digər problemlərlə, eyni zamanda, başqa ölkələrdə, əsasən də, Rusiya Federasiyasında vətəndaşlıq alan soydaşlarımız da qarşılaşırlar. Düşünürəm ki, belə problemləri operativ və daha münasib formada həll etmək üçün soydaşlıq haqqında ayrıca bir qanunun qəbuluna ehtiyac var. Axı, biz Azərbaycan Respublikasını dünyaya səpələnmiş bütün azərbaycanlıların vətəni hesab edirik. Diqqətinizə görə sağ olun.

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini* ***Bahar Muradova*** *sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Başqa çıxış etmək istəyən yoxdursa, məsələni səsə qoyaq. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti 23-cü məsələ. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə. Buyurun, Azay müəllim.

**A.Quliyev.** Təşəkkür edirəm. Hörmətli Bahar xanım, hörmətli həmkarlar. Diqqətinizə təqdim olunan qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır. Bildiyiniz kimi, 2018-ci il 29 iyun tarixində “Feldyeger rabitəsi haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq dəyişikliklər edilmişdir. Qeyd etdiyim kimi, həmin qanunla “Feldyeger rabitəsi haqqında” Qanuna edilən dəyişikliklərə görə feldyeger rabitəsi orqanı əməkdaşları tərəfindən çatdırılan korrespondensiyalar və digər göndərişlər toxunulmazdır, açıla, yoxlanıla və ya həbs edilə bilməz. İndi sizə təqdim olunan layihədə məhz həmin müddəanın İnzibati Xətalar Məcəlləsinin 92-ci maddəsində müvafiq qaydada yerləşdirilməsi təklif edilir. Ona görə də hörmətli həmkarlarımdan bu dəyişikliyə səs vermələrini xahiş edirəm. Sağ olun.

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini **Ziyafət Əsgərov** sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Əgər çıxış etmək istəyən yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Bələdiyyələrin əraziləri və torpaqları haqqında” Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş

"Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə qanun layihəsi. Regional məsələlər komitəsinin üzvü Rüstəm Xəlilov. Rüstəm müəllim, buyurun.

**R.Xəlilov,** *Milli Məclisin Regional məsələlər komitəsinin üzvü.*

Çox sağ olun, Ziyafət müəllim. Dəyərli həmkarlar, müzakirənizə təqdim olunan qanun layihəsi ilə əlaqədar bildirirəm ki, cari ilin payız sessiyasında Azərbaycan Respublikasının Ağsu, Astara, Goranboy, Göygöl, Xaçmaz, Xızı, Qazax, Quba, Qusar, Masallı, Oğuz, Saatlı, Samux, Şəmkir və Yevlax rayonlarının bəzi ərazi vahidlərinin adlarının dəyişdirilməsi haqqında qanun qəbul edilmişdir. Bu qanunla adları sadalanan 15 rayon üzrə 25 ərazi vahidinin adı dəyişdirilmişdir. Bu qanuna əsasən "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi bugünkü müzakirəyə təqdim olunmuşdur. Yəni həmin kəndlərin və qəsəbənin adlarında edilən dəyişikliklər eyni ilə bələdiyyələrin siyahısında da aparılır. Hesab edirəm ki, layihə ilə tanış olduğunuza görə, siyahını oxumağa ehtiyac yoxdur və həmkarlarımdan bu layihəyə səs vermələrini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Təklif var, səsə qoyulsun. Buyurun, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 13.29 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Komitə sədri Əhliman Əmiraslanov. Əhliman müəllim, buyurun.

**Ə.Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Ziyafət müəllim, hörmətli deputat həmkarlarım, "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda aşağıdakı dəyişikliklərin edilməsi təklif olunur. Qanunun 3-cü maddəsinin 4-cü bəndinə "keyfiyyətinə" sözündən sonra "effektivliliyinə" sözünün əlavə edilməsi, eyni maddənin 5-ci bəndində "səmərəli" sözünün "effektiv" sözü ilə əvəz edilməsi və Qanunun 14-cü maddəsinin 2-ci bəndinin ikinci cümləsinə "tərkibli" sözündən sonra "eyni dozalı" sözlərinin əlavə edilməsi təklif olunur. Xahiş edirəm, dəyişiklikləri dəstəkləyəsiniz.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Tahir Kərimli.

**T.Kərimli.** Təşəkkür edirəm. Hörmətli sədrlik edən, hörmətli deputatlar, hörmətli media nümayəndələri! Demək, mən tibb mütəxəssisi deyiləm, diqqəti başqa məsələyə yönəltmək istəyirəm. "Səmərəli" sözünün "effektiv" sözü ilə əvəz olunması və fürsətdən istifadə edib, vaxtınızı bir daha almamaq üçün 29-cu məsələdə, Mənzil Məcəlləsində dəyişikliklə bağlı "özəl" sözünün "xüsusi" sözü ilə əvəz olunması barədə öz fikirlərimi bildirmək istəyirəm. Bilirsiniz ki, "effektiv" sözü latın sözüdür, 3 məna kəsb edir. Birincisi, fiziki mənada, deyək ki, işıq effekti, ikincisi, iqtisadi mənada müəyyən əmək sərfi nəticəsində əldə olunan nəticənin

miqdarını göstərir. Üçüncüsü, nəhayət, səmərəli olmağı göstərir. Göründüyü kimi, bu mətndə effektiv sözü ilk iki məna ilə uyğun gəlmir. Elə səmərəli qarşılığına uyğundur. Düzdür "səmərə" sözü də ərəb sözüdür, amma bura "lı", "li" şəkilçimiz əlavə olunur və bizim dilimizə daha yaxındır, hamı başa düşdüyü şəkildədir. Eyni zamanda, biz həmişə özəl, özəlləşdirmə sözünü deyil, xüsusi sözünü işlədirdik. Müstəqillik dövründə dilimizə indi bu sözlər daxil olub. Şəxsən mən, misal üçün, o zamanlar da Milli Məclisdə nəinki özəlləşmə, özününküləşdirmə sözünü təklif etmişdim. Amma artıq özəlləşdirmə qəbul olunub. İndi yenidən özəl sözünü xüsusi sözü ilə əvəz edirik.

Bax, elə bu gün, eyni zamanda, 31-ci məsələ "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında" Qanuna dəyişiklik edəcəyik. Bu özəlləşdirmə sözü həmin maddədə on dəfələrcə təkrar olunur – "özəl" sözü, "özəlləşdirmə" sözü. Necə ola bilir ki, biz Mənzil Məcəlləsində "özəl" sözünü "xüsusi" sözü ilə əvəz edirik, ancaq başqa bir qanunda on dəfələrcə özəl sözü, həm də sözün kökündə işlənir? Yəni bu nə deməkdir? Mən onu demək istəyirəm ki, – doğrudur, "səmərə" sözü də ərəb sözüdür, ancaq milliləşib, – bu baxımdan təklif edirəm, elə o "səmərəli" sözü qalsın, o, dilimizə daha yaxındır. Anlaqlı olsun. Bilirsinizmi, fürsətdən istifadə edib, iki məsələni bir yerdə deyirəm.

Cənab Prezident artıq neçənci dəfə dilimizin qorunması ilə bağlı müvafiq sərəncamlar verir, çıxışlar edir və bir Monitorinq Mərkəzi yaradıb. Mən hesab edirəm ki, bizim özümüzdə monitorinq mərkəzinin bir şöbəsi olsun, biz qanun layihələrini Prezidentin imzalamasından əvvəl ora göndərək.

Vaxtı ilə Atatürk demişdi ki, "ruhla dil birbaşa əlaqəli məsələdir". Bu dil millətimizin ruhudur. Dilimiz ölərsə, ruhumuz da ölər. Biz nə etmək istəyirik, biz nə vaxt

özümüzə oxşayacağıq? Nə vaxta kimi Səməd Vurğunun sözünü bir az dəyişdirib, belə deyəcəyik: Nədəndir dilimizin məfhumları, gah İrandan gəlir, gah da Turandan, bəs mənim milli varlığım hanı?

Əgər bizim sözümüz yoxdursa, deyək ki, beynəlxalq termindir, kompüteri, etməyək bilgisayar, öz dilimizdə qarşılığı varsa götürək, yoxdursa, Azərbaycanda xeyli xalqlar yaşayır, onların dilindən götürək, dilimizi qoruyaq. Bura, parlament süzgəcdir. Biz, bilirsinizmi, mən üzr istəyirəm, dedim təkrar çıxış etməmək üçün iki məsələni bir yerdə danışıram, əslində dil bizim üçün babalarımızın, analarımızın əmanətidir, bizim deyil. Onu gələcək nəsillərə verməliyik. Biz dilimizi nə günə qoymaq istəyirik? XIX əsrin sonlarında belə oldu ki, maarifçilik hərəkatında müxtəlif dillərdən, – o vaxt çatışmırdı, – terminlər götürülürdü. Bizim dilimiz, xalq dili bulaq kimi çağlayır, gedib, onu öyrənək, tətbiq edək. Özümüzü, dilimizi sevsək, başqa millətlər də bizi sevəcək. Çünki özümüzə hörmət etsək, hətta bu gün rus dilində danışanlar da qayıdıb öz dilimizdə danışarlar.

Ona görə, birinci bizdən başlamalıdır. Biz burada qanun yaradırıq, hamıya nümunə göstəririk. Qəbul etdiyimiz bu qərar, bu “effektiv” sözü, tamamilə, nə şəkilçisi, nə özü bizim deyil. Bütün nazirliklər, dövlət məmurları hamısı bunu təkrar edəcək. Belə-belə dilimiz pozula-pozula gedir. Mən hesab edirəm, dili qorumaq lazımdır. Bir də yeri gəlmişkən, dil ilə milləti qarışdırmaq lazım deyil. Misal üçün, Cənubi Amerikada 900 milyondan çox əhali ispan və portuqal dilində danışır. Nə ispandır, nə portuqaldır. Amma bizim, biz azərbaycanlıların, azəri türklərinin dili bizim üçün mənbədir. O mənbə həm də ruhumuzdur. Ona görə də mən xahiş edirəm ki, dilimizdən muğayat olaq. Mən bilmirəm nə qədər deputat olacağam, bəlkə de-

putatlıq etməyəcəyəm. Mən bugünkü deputatlığı...

**Sədrlik edən.** İsa Həbibbəyli, buyurun.

**İ.Həbibbəyli.** Həmkarım Tahir Kərimliyə dərin minnətdarlığımı bildirirəm. Dilimizin saflığını qorumaq təkcə məktəbdə, təhsil və elmi müəssisəsində həyata keçirilən proseslərlə tənzimlənmir, eyni zamanda, qanunvericilik bazasının formalaşmasında, qanunların yazılmasında bu amilə, dilimizin saflığının qorunmasına əməl etmək bizim vətəndaşlıq borcumuzdur. Bu istiqamətdə mən Milli Məclisdə aparılan işlərin inkişafda olduğunu görürəm. Bununla bərabər, konkret məsələ barəsində demək istəyirəm ki, "effektiv" sözü də, "səmərəli" sözü də, hər ikisi sinonim, hər ikisi alınma sözdür, amma müqayisədə "səmərəli" sözü dilimizdə daha çox vətəndaşlıq hüququ qazanmışdır. Ona görə də "səmərəli" sözündən istifadə etmək yerinə düşər. Bütövlükdə isə dilin saflığını qorumaq, bu barədə mövqe ifadə etmək hər birimizin borcudur.

**Sədrlik edən.** Musa Quliyev, buyurun.

**M.Quliyev.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Məndən öncə çıxış edən hər iki həmkarıma minnətdarlığımı bildirirəm ki, belə qılıncla, qalxanla dilimizin keşiyində durublar, bundan sonra da dayansınlar. Amma effektiv sözü tibbi termindir. Dərmanın dozasını müəyyən edəndə "effektiv" sözü ilə "səmərəli" sözü eyni məna daşımır. Səmərəli dərman o deməkdir ki, dərmanın insana xeyri var, effektiv dərman o deməkdir ki, həmin dozada onun müalicəvi effekti var. Yəni "səmərəli" sözü burada daha çox faydalı sözü ilə sinonim kimi gəlir. Amma "effektiv" sözü bütün dünyada qəbul olunmuş bir əczaçılıq terminidir, yəni bu səmərəli sözü də, faydalı sözü də dərmanın həmin dozada xeyirli olması anlamını verməyəcək. Amma "effektiv" sözü burada dəqiq, öz yerindədir. Mən xahiş edirəm, bunu dəstəkləyək.

Hesab edirəm, bu mövzuda geniş müzakirəyə də ehtiyac yoxdur. Təşəkkür edirəm.

**Sədrlik edən.** Bir dəqiqə.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hikmət müəllim danışmaq istəyirdiniz, buyurun.

**H.Məmmədov.** Çox sağ olun. Mən düşünürəm ki, İsa müəllim çox doğru buyurdu. Bəzi hallarda biz "səmərəli" və "effektiv" sözlərini sinonim kimi qəbul edirik. Amma ayrı-ayrı məsələlərə münasibətdə hər ikisi müstəqil leksik vahid kimi çıxış edir. Musa müəllim çox doğru buyurdu, çünki bu sözlərin sinonim kimi işləndiyi yerlər də var, amma ayrıca, müstəqil, leksik vahid kimi çıxış etdiyi yerlər də var. Mən düşünürəm ki, konkret qanun layihəsində sözün semantik mənası ifadə edilən məzmun ilə uzlaşır və doğrudur. Eyni şəkildə, "xüsusi" və "özəl" sözləri də bəzən bir-birinə sinonim kimi işləmir, bəzən isə bunlar müstəqil leksik vahid kimi çıxış edir. Biz "özəlləşdirmə" deyəndə, ümumiyyətlə, nəyin isə özəlləşdirilməsindən, yəni xüsusisləşdirilməsindən söhbət gedir. Amma "xüsusi" deyəndə, konkret xüsusi hadisədən də söhbət gedə bilər. Ona görə mən düşünürəm ki, hər ikisi dilimizdə pasport qazanmış müstəqil leksik vahidlərdir və konkret halda doğru, semantik məzmunda işlədilir. Sağ olun.

**O.Əsədov.** Mən Ziyafət müəllimdən üzr istəyirəm, davam edəcək, iclas aparırdı. Əhliman müəllim, deyəsən, dərmanın dozası çox yuxarı olub, dərman qaldı kənarda, keçmişik dil məsələlərinə. Mən razıyam, dilimizi qorumalıyıq, bu bir nömrəli məsələdir. Komitələrin iclaslarında görürsünüz, bu məsələləri elə birinci qaldıranlardan biri Valeh müəllimdir. Hamımız dil məsələlərini qaldırırıq, dilimizi qoruyuruq. Monitorinq mərkəzi lazım deyil, biz

özümüz bu məsələlərlə məşğul oluruq. Mən hesab edirəm, bu məsələlərlə gələcəkdə də məşğul olmaq lazımdır. Amma xahiş edirəm, çıxış edəndə gündəliklə əlaqədar məsələyə də dəqiq münasibət bildirək. Buyur, Ziyafət müəllim.

**Sədrlik edən**. Əhliman müəllim, buyurun.

**Ə.Əmiraslanov.** Mən də hesab edirəm ki, bu gün çox vacib məsələyə toxunduq. Mən bir həkim kimi, mütəxəssis kimi, hesab edirəm, – bu, ümumiyyətlə, "effektivlik" sözünə aid deyil, – dünyada qəbul olunmuş bir çox terminlər var ki, biz onların hamısını Azərbaycan dilinə tərcümə edə bilmərik. Bütövlükdə, beynəlxalq miqyasda qəbul olunmuş sözlər bizim dilimizdə olmalıdır və olacaq da. Əgər bunların hər birini Azərbaycan dilinə tərcümə etməyə çalışsaq, onda bizim işimiz çətin olar və mütəxəssislər bir-birini başa düşə bilməzlər. Konkret olaraq "keyfiyyətli", "səmərəli" və "effektiv" sözləri ilə əlaqədar olaraq Tahir müəllimə mən onu demək istərdim ki, burada "effektiv" sözü dərmana aiddir. Yəni dərmanın təsir mexanizminə, verilən bu və ya digər preparatın insan orqanizminə necə təsir etməsinə aiddir. Demək olmaz ki, bu dərman verilir və orqanizmə səmərəli təsir edibdir. Ona görə də burada sırf dərman vasitəsinə aid olduğuna görə, hesab edirəm, "effektiv" sözü qalmalıdır.

**Sədrlik edən.** Çox sağ olun, təşəkkür edirəm. Tahir müəllim, Siz qaldırdığınız məsələni burada hamımız müdafiə edirik. Bu, birmənalıdır. Şəxsən mənim üçün ana dili ana südü qədər əzizdir. Bu, heç müzakirə obyekti deyil, heç müzakirə də olunmamalıdır. Amma mən indi bir daha baxdım, bu kontekstdə, Tahir müəllim, söhbət dərmanın dozasının effektivliyindən gedir. Yəni burada "effektiv" sözü keyfiyyət kateqoriyası ilə bağlıdır. Ona görə Siz bayaq tamamilə düz qeyd elədiniz ki, latın dilindən gəlmiş

sözdür və onun 3 mənası var. Məhz burada “effektiv” sözü ona görə yerinə düşür ki, o dərmanın keyfiyyəti ilə bağlıdır. Ümumiyyətlə, bir çox məsələlərdə “effektiv” sözü keyfiyyət kateqoriyası ilə bağlıdır. Ona görə mən belə hesab edirəm ki, burada “effektiv” sözünün işlənməsi yerinə düşər və bu, dilimiz üçün də heç bir təhlükə deyil. Biz “səmərəli” sözünü də, “effektiv” sözünü də işlədirik. Amma baxır hansı kontekstdə, harada. Burada, hesab edirəm, məhz “effektiv” sözü daha yerinə düşür. Sağ olun, təşəkkür edirəm. Əgər başqa çıxış edən yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 3 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Oqtay Əsədov** sədrlik edir*

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

Növbəti 26-cı məsələ. Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri. Cənab Prezidentin imzası ilə iki qanun layihəsi bir məktubda gəlib. Azərbaycan Respublikasının Vergi Məcəlləsində və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri. Ona görə, icazə versəydiniz, iki

layihə haqqında da məlumat verərdim. Bakı Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 2 aprel tarixli fərmanı ilə Bakı Nəqliyyat Agentliyinin nizamnaməsi təsdiq edilmişdir. Həmin nizamnaməyə görə Bakı Nəqliyyat Agentliyi Bakı şəhərinin inzibati ərazisində yol hərəkətinin təşkilində iştirak edən ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində tənzimləməni və nəzarəti həyata keçirən publik hüquqi şəxsdir. Qeyd olunan fərman ilə Bakı Nəqliyyat Agentliyinə şəhər daxilində nəqliyyat fəaliyyətinin tənzimlənməsi sahəsində səlahiyyətlər verilmişdir.

Qanun layihəsi fərmanın icrası məqsədi ilə hazırlanmışdı və sərnişin və yük daşımalarına görə sadələşdirilmiş verginin hesablanması üçün avtomobil nəqliyyatı vasitələri ilə sərnişin daşımanı həyata keçirən şəxslərə fərqlənmə nişanı verilməsi sahəsində Bakı Nəqliyyat Agentliyinin səlahiyyətlərini müəyyən edir. Həm "Avtomobil nəqliyyatı haqqında" Qanunda, həm də Vergi Məcəlləsində edilən dəyişikliklərin mahiyyəti bundan ibarətdir. Ona görə, millət vəkillərindən ayrı-ayrılıqda hər iki qanuna səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Əgər başqa bir fikir yoxdursa, xahiş edirəm, Vergi Məcəlləsində edilən dəyişiklik haqqında qanun layihəsinə, 26-cı məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Xahiş edirəm, gündəliyin 27-ci məsələsinə, "Avtomobil nəqliyyatı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 28-ci məsələsi "Azərbaycan sərhəd mühafizəsinin 100 illiyi" Azərbaycan Respublikası yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi ilə bağlı qanun layihəsidir. Buyursun Azay Quliyev.

**A.Quliyev.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli həmkarlar. Bilirsiniz ki, hörmətli cənab Prezident tərəfindən 2018-ci il Xalq Cümhuriyyəti ili elan olunubdur. Bu il ərzində bir sıra mühüm tədbirlərlə yanaşı, həmin dövrdə təsis olunmuş dövlət orqanlarının şərəfinə yubiley orden və medalları da təsis edilmişdir. Biz əvvəlki iclaslarımızda bununla bağlı bir neçə qərar, qanun qəbul etmişik. İndi müzakirənizə təqdim olunan qanun layihəsi bu xoş ənənənin davamı kimi təqdim olunur. Beləliklə, Azər-

baycan sərhəd mühafizəsinin 100 illiyi Azərbaycan Respublikası yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanuna müvafiq dəyişiklik təklif olunur. Qanun layihəsi haqqında sizdə məlumat var, paylanıbdır. Medalın texniki göstəriciləri və parametrləri haqqında da ətraflı məlumat verilibdir. Mən hörmətli həmkarlarımdan xahiş edərdim ki, bu vacib və əhəmiyyətli qanun layihəsinə səs versinlər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Əgər başqa bir fikir yoxdursa, xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 29–31-ci məsələləri bir zərflə gəlib. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi, birinci oxunuş. Buyursun Azay Quliyev.

**A.Quliyev.** Təşəkkür edirəm, hörmətli cənab Sədr. Siz doğru buyurdunuz ki, gündəliyin 29–30–31-ci məsələləri cənab Prezidentin məktubu ilə paket şəklində daxil olubdur. 29–30-cu məsələlər bizim komitəyə aid olduğundan, icazənizlə, bu barədə məlumat verərdim. Nəzərə alsaq ki, bu, birinci oxunuşda müzakirəyə çıxarılır, bəzi məqamları burada aydınlaşdırmağa ehtiyac var. Bilirsiniz

ki, 2017-ci il 13 iyun tarixində Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir. Qanunun məqsədi çoxmənzilli binanın, o cümlədən kooperativ binanın idarə edilməsi ilə bağlı mexanizmlərin təkmilləşdirilməsindən, idarəetmədə mənzil mülkiyyətçilərinin daha yaxından iştirakının təmin olunmasından ibarətdir. Həmin qanunla məcəlləyə "Çoxmənzilli binanın idarə edilməsi qaydası" adlanan 141-1-ci maddə əlavə edilmişdir. Bu qanun qəbul edildikdən sonra Azərbaycan Respublikası Nazirlər Kabineti Mənzil Məcəlləsinin 141-1.1-ci maddəsinə uyğun olaraq çoxmənzilli binanın idarə edilməsi qaydasını təsdiq etməlidir. Bu qanunun qəbulu cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən bir çox məsələlərin müsbət həllinə imkan verəcəkdir.

Hörmətli həmkarlar, sizə təqdim olunan qanun layihəsində aşağıdakı iki mühüm məqama diqqəti cəlb etmək istərdim. Belə ki, Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin 10-cu maddəsinə təklif edilən dəyişikliklər: 1. Çoxmənzilli binanın idarə edilməsi qaydasını müəyyən edir; 2. Çoxmənzilli binanın idarə edilməsində dövlət nəzarətinin həyata keçirilməsi qaydalarını özündə təsbit edir.

Qanunda bir sıra dəqiqləşdirmə xarakterli düzəlişlər də var. Belə ki, 6.0.2-ci, 17.2.1-ci, 20.5-ci və 138.3-cü maddələrdə "özəl" sözü "xüsusi" sözü ilə 41.6-cı maddədə "üstün hüquqa" sözləri, "üstünlük hüququna" sözləri ilə, 44.3-cü maddədə isə "kvorum" sözü "yetərsay" sözü ilə əvəz edilir. 149.5-ci maddəyə təklif olunan dəyişiklik isə, mənzil-tikinti kooperativinin mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinə çevrilməsi ilə bağlı mexanizmi dəqiqləşdirir. Yəni mənzil-tikinti qurumlarının üzvləri mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinə çevril-

məsi ilə bağlı qərar qəbul etməli, həmin cəmiyyətin qeydiyyatı üçün tədbirlər görməlidirlər. Hesab edirəm ki, bu, çox aktual məsələdir və millət vəkilləri olaraq bizə bir çox vaxtlarda bununla da bağlı müraciətlər daxil olubdur. Düşünürəm ki, diqqətinizə təqdim olunan qanun layihəsi məhz bu problemlərin tənzimlənməsinə və mövcud çətinliklərin aradan qaldırılmasına çox ciddi töhfə verəcəkdir. Hörmətli həmkarlarımdan bu dəyişikliklərə səs vermələrini xahiş edərdim. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa.

**F.Mustafa.** Təşəkkür edirəm, Oqtay müəllim. Mən hesab edirəm ki, bu gün Azərbaycanda ən ciddi problemlər, ən acınacaqlı vəziyyət mənzil tikintisi ilə bağlıdır. Bildiyiniz kimi, burada çox sayda insanların problemləri hələ də qalmaqdadır. Hətta hüquq mühafizə orqanlarına da müraciət olunur, cinayət işi qaldırılır, amma bundan sonra da o problemlər öz həllini tapmır. Biz də burada dəyişiklik edirik, çoxmənzilli binanın idarə edilməsinə dövlət nəzarətinin həyata keçirilməsi qaydalarını müəyyən etmək maddəsinə əlavə edirik. Amma faktiki olaraq hazır binaların əksəriyyətində vətəndaş hər hansı formada idarəetmədə iştirak etmir və binanı tikən şirkətdən tam asılı vəziyyətdə olur. Hansısa iclas keçirmək, qərarların qəbul edilməsində rol almaq imkanı yoxdur və bununla da heç kim, açığını deyim ki, nə qədər hüquq versək də, maraqlanmır.

Ən acınacaqlı vəziyyət indi nədə yaranıb? İndi hamı hədəf olaraq binanı tikən sahibkarı götürür. Amma sahibkarın boynuna o qədər yük qoyurlar ki, sahibkar yazıq son illərdə heç oradan gəlir də götürə bilmir. Məsələn, mən sizə deyim, bürokratik maneələrin ortadan qaldırılması üçün indi yeni bir qurum yarandı. Çox yaxşı. Yeni

qaydaların təsdiqi müsbət bir haldır. Amma əvvəldən sahibkar tutaq ki, binanın mərtəbəsi və bloku barədə sərəncam alıbdır və sərəncama uyğun da hərəkət edir. Amma bu gün tutaq ki, yeni formada təklif olunur, məsələn, mərtəbə, blok azalsın. Sahibkar nə etməlidir?

Bu ölkədə varislik, hüququn varisliyi prinsipinə əməl eləmək, doğrudanmı, o qədər çətindir? Bir dövlət qurumu bunu veribsə, artıq bu bitdi də. İkinci dəfə, 2 ildən, 1 ildən sonra yeni bir qurum yarananda bunu vətəndaşdan necə tələb edə bilər? Sahibkar layihə cızıb, layihəyə filan qədər pul verib, binadan perspektivdə özü nə qazanacaq, nə qədər vergi verəcək, bunları müəyyən edibdir. Birdən-birə onun iqtisadi, maddi maraqlarını nəzərə almadan, belə çökdürülməsi ölkədə kimin faydasınadır? Bu da bir sahibkardır. Bu da müəyyən bir sahədir ki, adamları iş yeri ilə təmin edir. Ona görə də yüzlərlə insanın dələduzluq yolu ilə 3–4–5 adama satılmış mənzillərinin problemi hələ də həll olunmayıb. Onu da sahibkarın üzərinə yükləyirlər. Halbuki, məsələn, onu törədən adamların cəmiyyət həyatında müxtəlif formalarda zərərsizləşdirilməsi yolları tapılmalıdır. Bunlar ikinci dəfə iqtisadi sahəyə daxil ola bilməməlidirlər. Halbuki, həmin kateqoriyadan olan insanlar yenə də tikintidədirlər, bu işlərlə məşğuldurlar. Hərənin bir himayəçisi olanda nə olar ki...

Siz statistika aparsanız, görərsiniz, bu sahədə əziyyət çəkən yüzlərlə adam var. Onlarla insan, məsələn, universitet müəllimi vəfat edib, mənzil almaq üçün illərlə yığdığı pulu verib. Dələduzluq yolu ilə mənzili verməyiblər, 5 nəfərə satıblar. Bu gün, hətta, deyək ki, hüquq mühafizə orqanlarının əli ilə mənzili o adama verirlər, bir aydan, iki aydan sonra təmir edir, hər şey hazır, sonra başqa bir iddiaçı çıxır, təzədən məhkəmədə onu süründürürlər. Yəni Azərbaycanda

bu məsələyə artıq ciddi münasibət bildirilməlidir.

Birinci növbədə mən nəyi təklif edirəm? Bu qanunda dəyişiklik ediriksə, idarəetmənin üzərinə getməyək. Dəfələrlə mən məsələ qaldırdım, mənzilin pulunu ödəyən hər bir şəxsin mənzili özəlləşməlidir. Binanı təhvil verdin, vermədin. Artıq bu qərarı qəbul eləmək lazımdır. Vətəndaş niyə illərlə mülkiyyətçi ola bilmir? Axı bu, pulunu ödəyibsə, neynəsin ki, sahibkar binanı təhvil verə bilmir. Kimsə, haradasa nə qədər böyük məbləğ pul istəyirlər. Bu nə etsin? Ona görə də qanunvericilikdə dəyişiklik ediriksə, bu məsələləri kompleks həll eləməliyik ki, gündəmdən qalxsın. Azərbaycanda mənzil fırıldaqçılığı deyilən bir anlayış gündəmdən çıxsın. Yoxsa, idarəetmədə iştirak edəcək, onsuz da iştirak eləmir. Çünki tikilən bina təhvil veriləndən sonra tikinti sahibi heç ora yaxınlaşmır da. Onlarla bina var ki, vətəndaş pul yığır lifti də təmir edir, pul yığır, alır, düzəldir, yaxud binanın mərtəbələrini də özü təmir edir. Bu, qeyri-sivil bir yoldur.

Biz XXI əsrdə bu problemi hələ də insanın üzərinə yükləyəcəyiksə, bunun sonrası nə olacaq? Ona görə hesab edirəm ki, kosmetik dəyişikliklərlə məsələnin həlli mümkün deyil. Bu problemi daha ciddi, köklü şəkildə həll eləmək üçün müvafiq komitələrimiz çalışmalı və təklifini verməlidir ki, biz də bunu müzakirə edib qəbul edə bilək. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Başqa çıxış eləyən yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, gündəliyin 29-cu məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.56 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 30-cu məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.57 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 31-ci məsələsi Mənzil fondunun özəlləşdirməsi haqqında qanun layihəsidir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, Azay müəllim kifayət qədər məlumat verdi. Bu dəyişikliklərdən biri də Mənzil fondunun özəlləşməsi haqqında qanun layihəsində öz əksini tapmalıdır. Ona görə millət vəkillərindən xahiş edərdim ki, artıq deyildi, bu qanun layihəsinə səs versinlər.

**Sədrlik edən.** Çox sağ olun. Başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.58 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Sağ olun, qəbul edildi.

İndi tənəffüs elan edilir. Sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Deməli, 14 məsələdir, 3–4 layihənin ikinci oxunuşudur. Siz yekunlaşdırana oxşamırsınız axı. Hər məsələyə 15 nəfər yazılır.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Tənəffüssüz keçirək? Yaxşı. Onda gündəliyin 32-ci məsələsinə keçirik. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə, birinci oxunuş. Azay Quliyev buyursun.

**A.Quliyev.** Təşəkkür edirəm, cənab Sədr. Mən hörmətli həmkarlarımın təklifini nəzərə alaraq, çox qısa təqdim edəcəyəm. Əslinə baxanda, elə təklifin özü də texniki xarakter daşıyır. Belə ki, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunda dəyişiklik edilməsi barədə daxil olan qanun layihəsində yeni 9-1-ci maddənin əlavə edilməsi təklif olunur. Bilirsiniz ki, mövcud qanuna əsasən 9-cu maddə təsisçi tərəfdən edilmiş və qeydə alınmış faktların sonrakı dəyişiklik kimi qeydiyyata alınmasını özündə əks etdirmişdir. Yeni təklif isə özündə bu dəyişikliklərin elektron qaydada həyata keçirilməsini ehtiva edir. Bu əlavələr, xüsusi ilə məhdud məsuliyyətli cəmiyyətlərə aiddir. Hesab edirəm ki, bu da bizim üçün önəmlidir və ölkədə elektronlaşdırma istiqamətində aparılan siyasətə qanunvericilik səviyyəsində ciddi bir töhfədir. Həmkarlarımdan xahiş edirəm, bu dəyişikliyə səs versinlər.

**Sədrlik edən.** Sağ olun. Başqa təklif yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.00 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Sağ olun, qəbul edildi.

33-cü məsələ İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə. Azay Quliyev buyursun.

**A.Quliyev.** Təşəkkür edirəm, cənab Sədr. Hörmətli həmkarlar, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci 3 ay keçənədək verilə bilər. Həmin Məcəllənin 38.1-ci maddəsinin ikinci cümləsində qeyd edilən inzibati xətalara görə isə inzibati tənbeh xətanın törədildiyi gündən ən geci bir il keçənədək verilə bilər. Qanun layihəsində təqdim edilən dəyişikliklərə görə hüquqi şəxslərin dövlət qeydiyyatı zamanı verdikləri yanlış məlumatların aşkar edilməsi məqsədi ilə qeyd edilən xətaya görə də inzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci bir il keçənədək verilə bilər. Bu, bir növ uyğunlaşdırmadır və müddətlər arasında olan məsafənin İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tənzimlənməsidir. Ona görə hörmətli həmkarlarımı bu dəyişikliyə səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

34-cü məsələ. "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə. İkinci oxunuşdur. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Qanun layihəsi aviasiya təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə hazırlanmışdır və daşıyıcılar üçün Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikası ərazisini tərk edəcək hava gəmisinin həm sərnişinləri, həm də ekipaj üzvləri barədə müvafiq icra hakimiyyəti orqanına məlumat vermək öhdəliyi müəyyən edir. Verilməli olan məlumatların siyahısı, məlumatların daşıyıcılar tərəfindən verilməsi, habelə həmin məlumatların qəbul edilməsi, saxlanması və digər dövlət orqanları ilə mübadilə edilməsi qanun qüvvəyə mindikdən sonra müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq ediləcək qaydalarda öz əksini tapacaqdır. Başqa dəyişiklik təklif edilməmişdi, ona görə də millət vəkillərindən bu qanun layihəsinə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsi ikinci oxunuş olduğu üçün əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.04 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Qanun layihəsinə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.04 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

35-ci məsələ. “Dövlət borcu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə. Bu da ikinci oxunuşdur. Əvvəl, xahiş edirəm, ikinci oxunuşda əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.05 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Bilirsiniz ki, biz “Kredit büroları haqqında” Qanun qəbul etmişdik. “Dövlət borcu haqqında” Qanunda dəyişiklik də bu qanunla əlaqədar olaraq hazırlanmışdır. “Dövlət borcu haqqında” Qanunun 11-ci maddəsinə aşağıdakı bənd əlavə edilir: “kredit bürosundan əsas borcalan aid kredit hesabatı, həmçinin əsas borcalanın kredit hesabatında əksini tapmayan digər borcları haqqında məlumat”.

Millət vəkillərindən bu qanun layihəsinə də səs verməlärini xahiş edərdim.

**Sədrlik edən**. Xahiş edirəm, qanun layihəsinə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.06 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 36-cı məsələ. Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi. İkinci oxunuşdur. Xahiş edirəm, ikinci oxunuşda əsas kimi qəbul edilməsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.07 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Buyursun Azay Quliyev.

**A.Quliyev.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli həmkarlar! Diqqətinizə təqdim olunan dəyişiklik bir növ texniki xarakter daşısa da, mühüm əhəmiyyətə malikdir. Belə ki, bilirsiniz ki, hazırkı praktikaya görə Azərbaycan Respublikası ərazisindən kənarda istintaqdan gizlənən, təqsirləndirilən şəxsin tutularaq cinayət prosesini həyata keçirən orqana gətirilməsi, yəni ekstradisiya olunması ilə əlaqədar çəkilmiş xərclər dövlətin hesabına həyata keçirilirdi. Bundan sonra bu yanaşma dəyişilir və yeni təklifə əsasən bu xərclərin Azərbaycan Respublikasının ərazisindən kənarda istintaqdan gizlənən və təqsirləndirilən şəxsdən tutulması nəzərdə tutulur. Yəni əvvəl bu xərci dövlət ödəyirdi, indi xərcin ödənməsi həmin təqsirləndirilən şəxsin hesabına həyata keçiriləcəkdir. Xahiş edirəm, dəstək verin.

**Sədrlik edən.** Xahiş edirəm, ikinci oxunuşda qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.08 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

37-ci məsələ. İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi barədə, ikinci oxunuş. Xahiş edirəm, qanun layihəsinə ikinci oxunuşda əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.09 dəq.) |
|---|---:|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Azay müəllim, buyurun.

**A.Quliyev.** Təşəkkür edirəm, cənab Sədr. Bildiyiniz kimi, sizə təqdim olunan qanun layihəsi indiyə qədər qəbul olunan normativ hüquqi aktların tələblərindən irəli gəlir. Belə ki, "Azərbaycan Respublikasında dövlət idarəçiliyin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli fərmanına əsasən Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidməti Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin tabeliyinə verilmiş və onun səlahiyyətləri həmin Xidmətə həvalə edilmişdir. "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Feldyeger Rabitəsi İdarəsi haqqında Əsasnamənin, onun strukturunun, habelə hərbi qulluqçularının və mülki işçilərinin ümumi say həddinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 fevral tarixli 1227 nömrəli fərmanı və həmin fərmanla Azərbaycan Respub-

likası Xüsusi Dövlət Mühafizə Xidmətinin Feldyeger Rabitəsi İdarəsi haqqında əsasnamə qəbul edilmişdir. Bundan əlavə, 2018-ci il 29 iyun tarixində "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişikliklər edilmişdir.

Hörmətli həmkarlar, mövcud qanun layihəsinin qəbul edilməsi ilə yuxarıda qeyd olunan dəyişikliklərin qanunvericiliyə gətirilməsini və həmin istiqamətdə olan normativ hüquqi aktlardan irəli gələn məsələlərin həllini təklif edirik. Xahiş edirəm, münasibət bildirəsiniz.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, 37-ci məsələyə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.11 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

38–39-cu məsələlər bir zərflə daxil olub. 38-ci məsələ, "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə və 39-cu məsələ, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə. Buyursun Azay Quliyev. Bir yerdə təqdim edə bilərsiniz.

**A.Quliyev.** Təşəkkür edirəm, cənab Sədr. Siz doğru buyurdunuz, hər iki məsələ vahid paketdə daxil olubdur. Ona görə, icazə versəydiniz, hər ikisini eyni vaxtda təqdim edərdim. Səsverməni ayrı-ayrılıqda keçirə bilərik.

38-ci məsələ ilə bağlı dəyişikliklər dövlət idarəetməsində vətəndaş məmnunluğunun və bütövlükdə sistemin tək-

milləşdirilməsinin təmin edilməsi  məqsədi ilə təklif edilir. Belə ki, dövlət orqanlarının bir-birinin informasiya ehtiyatlarına çıxışları, informasiya inteqrasiyası imkanlarının genişlənməsi, lazım olan məlumatları vətəndaşın iştirakı olmadan inzibati orqanların özlərinin əldə etmələrinə imkan verir. Eyni zamanda, qanunun bu tələbinin pozulmasına görə İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati məsuliyyətin nəzərdə tutulması təklif olunur.

39-cu məsələ ilə bağlı isə “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda təklif edilən dəyişikliyə əsasən inzibati orqan, inzibati icraat üçün zəruri olan və digər inzibati orqanın sərəncamında olan sənədlərin və ya məlumatların ərizəçi tərəfindən əldə olunmasını tələb edə bilməz – müddəası yer alır. İnzibati Xətalar Məcəlləsində dəyişiklik bu normanın pozulmasına görə 594-cü maddəyə əsasən inzibati məsuliyyət nəzərdə tutmaq məqsədi ilə təklif edilir. Düşünürəm ki, hər iki layihə ilə bağlı irəli sürülən ideyanın məzmunu kifayət qədər aydındır. Hörmətli həmkarlarımdan təklif olunan layihələrə dəstək vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Başqa fikir yoxdursa, xahiş edirəm, 38-ci məsələyə, “İnzibatı icraat haqqında” Qanunda dəyişikliyə ikinci oxunuşda əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.14 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi ikinci oxunuşda qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.14 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 39-cu məsələsinə ikinci oxunuşda əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.15 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi 39-cu məsələyə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.15 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 
Nəticə: Qəbul edildi

Çox sağ olun, qəbul edildi.

Növbəti 40-cı məsələ. Psixoloji yardım haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə. İkinci oxunuş. Buyursun Əhliman Əmiraslanov.

**Ə.Əmiraslanov.** Çox hörmətli Oqtay müəllim, çox hörmətli həmkarlar! Milli Məclisin Səhiyyə komitəsinin hazırladığı Psixoloji yardım haqqında qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasına təqdim olunur. Qanun layihəsi birinci oxunuşda Milli Məclisin 2018-ci il oktyabrın 30-da keçirilən plenar iclasında ətraflı müzakirə edilmiş, mütləq səs çoxluğu ilə qəbul olunmuşdur. Qanun layihəsi birinci oxunuşda müzakirə edilərkən deputat həmkarlarımızdan Qüdrət Həsənquliyev, Tahir Rzayev, Aqiyə Naxçıvanlı, Nizami Cəfərov, Bahar xanım Muradova, İlham Məmmədov, Səməd Seyidov, İsa Həbibbəyli, Zahid Oruc və Ülviyyə Həmzəyeva çıxış edərək qanun layihəsini dəstəkləmiş və dəyərli təkliflərini söyləmişlər. Qanun layihəsi ətrafında çıxış edən və layihənin lehinə səs verən bütün deputat həmkarlarımıza öz adımdan və Səhiyyə komitəsinin üzvləri adından dərin təşəkkürümü bildirirəm.

Hörmətli deputat həmkarımız Qüdrət Həsənquliyev təklif etmişdi ki, psixoloji yardımın mahiyyətinin vətəndaşlara izah edilməsi məqsədi ilə maarifləndirici verilişlər və sosial reklam çarxları hazırlansın. Bu təklif komitə tərəfindən nəzərə alınmış və qanun layihəsinin 5.2.7-ci bəndində öz əksini tapmışdır.

Deputat Tahir Rzayevin çıxışında hazırda dövlət sektorunda fəaliyyət göstərən psixoloqların maaşının aşağı ol-

duğu qeyd edilmişdir. Hesab edirik ki, qanunun 5.2-ci və 18.4-cü bəndlərində nəzərdə tutulan müddəalar layihə qəbul olunduqdan sonra bu problemin aradan qaldırılmasına şərait yaradacaqdır.

Millət vəkili Aqiyə xanım Naxçıvanlı psixoloqun ali təhsilli mütəxəssis olduğunun əsas anlayışlar maddəsində vurğulanmasını təklif etmişdir. Bildirmək istəyirik ki, bu məsələ qanun layihəsinin 11-ci bəndində öz əksini tapmışdır. Eyni zamanda, hörmətli Aqiyə xanım psixoloji yardıma ehtiyacı olanlar üçün qaynar xəttin yaradılmasını təklif etmişdi ki, bu təklif də qanun layihəsinin 5.2.7-ci bəndinə əlavə edilmişdir.

Millət vəkili, həmkarımız İsa Həbibbəyli qanun layihəsini bütövlükdə dəstəkləyərək layihədə "sessiya" sözünün daha aydın bir ifadə ilə əvəz olunmasını təklif etmişdir. Beləliklə, qanunda "sessiya" sözü "məşğələ" sözü ilə əvəz edilmişdir.

Son olaraq bir daha qanun layihəsinin birinci oxunuşda müzakirəsində fəal iştirak edən, qanunun daha da təkmilləşdirilməsinə və zənginləşməsinə xidmət edən təklif və mülahizələrə görə deputat həmkarlarımıza öz minnətdarlığımı bildirirəm. Bütün millət vəkillərindən Psixoloji yardım haqqında qanun layihəsini ikinci oxunuşda dəstəkləmələrini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. İkinci oxunuş olduğu üçün əsas kimi qəbuluna münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.19 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İkinci oxunuşda qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.20 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 41-ci məsələsi. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə. Birinci oxunuş. Buyursun Azay Quliyev.

**A.Quliyev.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr, dəyərli həmkarlarım! Sizə təqdim olunan qanun layihəsi siyasi partiyalarla, qeyri-hökumət təşkilatları ilə bağlı olduğuna görə cəmiyyətdə müəyyən həssaslıqla qarşılanır. Amma mən bəri başdan deyim ki, burada mahiyyəti üzrə müəyyən mənada hər hansı dəyişiklik və siyasi xarakter daşıyan hər hansı əlavə yoxdur. Burada, söhbət bəzi dəqiqləşdirmələrdən və bəzi münasibətlərin tənzimlənməsindən gedir.

Bildiyiniz kimi, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda təklif edilən ikinci dəyişikliyin məqsədi "Siyasi partiyalar haqqında" və "Həmkarlar İttifaqları haq-

qında" qanunlara 2018-ci ilin may ayında edilmiş dəyişikliklərin icrası ilə bağlıdır. İrəli sürülən təklifdə siyasi partiyaların, həmkarlar ittifaqlarının, qeyri-hökumət təşkilatlarının və xarici qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin fəaliyyətinin dayandırılması və bərpa edilməsi ilə əlaqədar qanunun 12-ci və 14-cü maddələrində dəyişiklik edilməsi və qanuna yeni 12.8.3-2-ci maddənin əlavə edilməsi öz əksini tapmışdır. Belə ki, qanunun 12.8.3-1-ci və 14.2.5-ci maddələrindən "fəaliyyətinin dayandırılması və bərpa edilməsi" sözlərinin çıxarılması, 14.2.3-cü və 14.2.4-cü maddələrinə "fəaliyyətinin dayandırılması və bərpa edilməsi" sözlərinin əlavə edilməsi təklif edilmişdir. Eyni zamanda, layihədə göstərilən məzmunda yeni 12.8.3-2-ci maddənin əlavə edilməsi də diqqətinizə təqdim olunur. Bu təklif siyasi partiyaların, həmkarlar ittifaqlarının, qeyri-hökumət təşkilatlarının və xarici qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin fəaliyyətinin dayandırılması və bərpa edilməsi barədə məlumatları özündə ehtiva edir. Mən hörmətli həmkarlarımı qanun layihəsinə səs verməyə dəvət edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən**. Başqa təklif yoxdursa, xahiş edirəm, birinci oxunuşda qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.23 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

42-ci məsələ. Seçki Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi, birinci oxunuş. Azay müəllim, buyurun.

**A.Quliyev**. Təşəkkür edirəm. Cənab Sədr, hörmətli həmkarlar, Seçki Məcəlləsinə edilən əlavə, dəyişikliklər sizə paylanıbdır. Mən ümid edirəm ki, hər kəsin tanış olmağa imkanı olubdur. Hazırda müzakirənizə təqdim olunan qanun layihəsinin mahiyyəti ondan ibarətdir ki, bəzi dəyişikliklər və dəqiqləşmələr aparılsın. Belə ki, bildiyiniz kimi, Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən təqdim olunubdur.

2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında referendum aktı ilə Konstitusiyanın 121-ci maddəsinə edilmiş dəyişikliklərə əsasən Azərbaycan Respublikasının Prezidenti 7 il müddətinə seçilir. Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 178.1-ci maddəsinə əsasən Prezidentin Konstitusiya ilə müəyyən olunmuş səlahiyyət müddəti başa çatdığı son ilin oktyabr ayının üçüncü həftəsinin çərşənbə günü seçki günü elan olunur. Seçki Məcəlləsinin bu müddəasına görə Prezidentin səlahiyyət müddəti 7 il 6 ay təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyası ilə Seçki Məcəlləsi arasında bu ziddiyyətin aradan qaldırılması məqsədi ilə 178.1-ci maddənin yeni redaksiyada verilməsi təklif olunur.

Mən istərdim yeni redaksiyanı diqqətinizə çatdırım: “178.1. Bu Məcəllənin 179.2-ci maddəsində müəyyən edilmiş qaydada seçkilərin təyin olunması halları istisna olmaqla, yeddi il əvvəl keçirilən Prezident seçkilərində

Prezidentin seçildiyi səsvermənin keçirildiyi ayın ikinci həftəsinin çərşənbə gününə Prezident seçkiləri təyin olunur”.

Beləliklə, qeyd etdiyim həmin 6 aylıq müddət fərqi aradan qaldırılır. Bundan əlavə Konstitusiyanın 101-ci maddəsinə və Seçki Məcəlləsinin 179.1-ci maddəsinə əsasən Azərbaycan Respublikası Prezidenti növbədənkənar prezident seçkilərini elan etdiyi hallarda həmin seçkilərin elan edildiyi gündən başlayaraq bir həftədən gec olmayan müddətdə seçkilər Mərkəzi Seçki Komissiyası tərəfindən çərşənbə gününə təyin edilir və 60 gün müddətində keçirilir.

Göründüyü kimi, seçkilərin elan olunması və təyin olunması fərqli anlayışlar olduğu üçün Seçki Məcəlləsinin bir sıra müddəalarında bununla bağlı müvafiq dəyişikliklər edilməsi təklif olunur. Hörmətli həmkarlarımdan bu dəyişikliyə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən**. Xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.26 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 43-cü məsələsi. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, birinci oxunuş. Buyurun, Azay Quliyev.

**A.Quliyev**. Hörmətli cənab Sədr, hörmətli həmkarlar, komitənin sonuncu təqdimatını sizin diqqətinizə çatdırıram. Bildiyiniz kimi, "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununun 12-ci maddəsi dərman vasitələrinin saxlanması, daşınması, geri çağrılması və məhv edilməsi qaydalarını müəyyən edir. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 221-ci maddəsinə təklif edilən 221.10 221.11-ci maddələr dərman vasitələrinin istehsalına, daşınmasına və saxlanmasına, eləcə də topdansatışına dair tələblərin pozulmasına görə məsuliyyəti nəzərdə tutur.

Bundan başqa, "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununun 13.5-ci maddəsinə görə aptek təşkilatlarına dair tələblər və aptek təşkilatlarından dərman vasitələrinin buraxılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Bu maddədə göstərilən "müvafiq icra hakimiyyəti orqanı" Azərbaycan Respublikası Səhiyyə Nazirliyi müəyyən edilmişdir. 2018-ci ildə Səhiyyə Nazirliyi tərəfindən həmin qaydalar qəbul edilmişdir. Buna uyğun olaraq təqdim edilən layihədə İnzibati Xətalar Məcəlləsinə əlavə olunması təklif edilən 452.3, 452.4-cü maddələr isə aptek təşkilatlarına dair tələblərlə bağlı inzibati məsuliyyəti nəzərdə tutur. Hörmətli həmkarlarımdan təklif olunan layihəyə səs vermələrini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən**. Xahiş edirəm, gündəliyin 43-cü məsələsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.29 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin son iki məsələsi qalıb. 44-cü məsələ. "Avtomobil nəqliyyatı haqqında" Qanunda dəyişiklik edilməsi barədə. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanunda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanunda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli Qanununun icrası ilə əlaqədar hazırlanmışdır. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə 2018-ci il 23 fevral tarixli qanun ilə beynəlxalq və ölkədaxili sərnişin və yükdaşımalarını təşkil edən və yerinə yetirən fiziki və hüquqi şəxslərin bu sahədə vəzifələri müəyyən edilmişdir.

Həmin qanuna əsasən beynəlxalq və ölkədaxili sərnişin və yükdaşımalarını təşkil edən fiziki və ya hüquqi şəxslər həmin daşımaları həyata keçirən yük avtomobillərini və ümumi istifadədə olan sərnişin nəqliyyat vasitələrini taxoqrafla təchiz etməlidirlər. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində dəyişiklər edilməsi haqqında Azərbaycan Respublikası Qanunu ilə Məcəlləyə yeni 326.1-ci maddə əlavə edilmişdir və onun 2019-cu il yanvarın 2-dən qüvvəyə minməsi təsbit olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 17 aprel tarixli fərmanına əsasən qeyd olunan yük avtomobil-

lərinin və ümumi istifadədə olan nəqliyyat vasitələrinin taxoqraflarla təmin olunması ilə bağlı zəruri tədbirlər görülməsi Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə həvalə edilmişdir. Hesab edirik ki, beynəlxalq və ölkədaxili sərnişin və yük-daşımalarında taxoqrafların tətbiqi daşımaların təhlükəsizliyinə, avtonəqliyyat vasitələrinin hərəkətinə, sürücülərin iş və istirahət rejiminə əməl etməsinə nəzarəti daha da gücləndirəcəkdir. Hesab edirik ki, konseptual baxımdan bu qanun layihəsi kifayət qədər məqbul sayılmalıdır və yuxarıda deyilən tədbirlərin həyata keçirilməsinə imkan verəcəkdir. Ona görə də millət vəkillərinin bu qanun layihəsinə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, gündəliyin 44-cü məsələsinə, "Avtomobil nəqliyyatı haqqında" Qanuna dəyişiklik edilməsi barədə qanun layihəsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.32 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Bugünkü gündəliyin sonuncu, 45-ci məsələsi. "Sığorta fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə. Buyurun, Ziyad müəllim.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri. Ölkədə sığorta münasibətlərini tənzimləyən sı-

ğorta qanunvericiliyində, xüsusi ilə “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununda sığorta və təkrarsığorta şirkətlərinin məcburi və könüllü ləğvetmə prosesi əhatə olunmasına baxmayaraq, onların sağlamlaşdırılması ilə bağlı müddəa mövcud deyildir. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının 2017-ci il 23 avqust tarixli qərarı ilə təsdiq edilmiş sığorta sektorunun tənzimlənməsi və nəzarəti üzrə tədbirlər planında müvəqqəti inzibatçı institutunun yaradılması tədbiri müəyyən edilmişdir. Bu tədbir dünyada bu sahədə sığorta sektorunda olan problemlərlə mübarizə üzrə ən qabaqcıl və mütərəqqi təcrübələrdən sayılır.

Qanun layihəsi sağlamlaşdırma tədbirlərinin tətbiqi nəticəsində sığorta sisteminin sabit və təhlükəsiz fəaliyyətinin təmin edilməsinə, istehlakçıların hüquqlarının müdafiəsinə, maliyyə dayanıqlığı aşağı olan subyektlərə səmərəli müdaxilənin mümkünlüyünə, ləğvetməyə gedən subyektin kapitalının müdafiə olunmasına və səmərəli istifadə edilməsinə, sığorta bazarına etimadın gücləndirilməsinə və digər faydalara nail olmağa imkan verəcəkdir.

Hörmətli millət vəkilləri, bilirsiniz ki, sığorta bazarında inkişaf imkanlarından kifayət qədər səmərəli istifadə olunmur. Son illərdə 2 sığorta şirkəti müflis olmuş, 4 sığorta şirkəti könüllü olaraq bağlanmış və bəzi sığorta şirkətlərinin maliyyə dayanıqlılığı xeyli azalmışdır. Ona görə də bu qanunun qəbul edilməsi, şübhəsiz ki, sığorta bazarında müsbət meyllərin yaranmasını sürətləndirəcəkdir. Millət vəkillərindən konseptual olaraq bu qanun layihəsinə birinci oxunuşda səs vermələrini xahiş edirəm.

**Sədrlik edən**. Sağ olun. Başqa təklif yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.35 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
Bugünkü iclasımız sona çatdı. Çox sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞIN MƏTNİ

## 30 noyabr 2018-ci il.

---

**Azər Badamov.** Hörmətli cənab Sədr, hörmətli həmkarlar! Psixoloji yardım haqqında qanun layihəsinin birinci oxunuşda müzakirəsi zamanı hörmətli həmkarım, böyük psixoloq Səməd Seyidov çox düzgün olaraq qeyd etdi ki, psixologiya cəmiyyətin nə səviyyədə inkişaf etməsi ilə bağlı bir indikatordur. Bu, həqiqətən, belədir. Çünki inkişaf etməmiş cəmiyyətlərin psixologiya haqqında heç düşüncələri də yoxdur. Ona görə də bizim cəmiyyət üçün psixoloji yardım haqqında mükəmməl bir qanunun ortaya qoyulması vacib idi. Psixoloqun əsas vəzifəsi cəmiyyətdə sağlam düşüncəli insanın formalaşmasına töhfə vermək olduğundan psixoloji fəaliyyətin də qanunla tənzimlənməsinə böyük ehtiyac var idi. Bu qanun formalaşana qədər isə psixoloqlar hüquqi bir əsas olmadan kortəbii fəaliyyət göstərirdilər və bu da düzgün hal hesab olunmur. Hər bir sahədə olduğu kimi, psixoloqların fəaliyyətini tənzimləyən qanun və əsasnamənin olması da vacibdir. Təqdim olunmuş qanun layihəsi psixoloqların cəmiyyətin hər bir sahəsində fəaliyyət göstərilməsi üçün tələblər və vəzifələr müəyyənləşdirir. Qanun layihəsini hazırlayanlara, başda hörmətli akademikimiz Əhliman müəllim olmaqla əməyi keçən hər kəsə təşəkkür edirəm və qanunun bəzi maddələri ilə bağlı təkliflərimi bildirmək istəyirəm.

Təhsil müəssisələrində psixoloji yardım haqqında 15-ci maddənin 1-ci bəndində qeyd olunur ki, Azərbaycan Respublikasında təhsilin bütün pillə və səviyyələrində sağlam

psixoloji mühiti, fərdi inkişaf və təhsilalanların psixoloji tələbatlarını təmin etmək məqsədilə psixoloji yardım göstərilməsinə təminat verilir. Təhsil müəssisələrində sağlam psixoloji mühitin formalaşmasında müəllim-şagird münasibətləri xüsusi rol oynayır. Ona görə də psixoloqların fəaliyyət dairəsinə təhsilverənlərin də daxil edilməsini daha düzgün hesab edirəm. 15.2-ci maddədə psixoloqun ştat vahidinin müəyyənləşdirilməsi təhsilverən və təhsilalanların sayına uyğun aparılarsa, daha düzgün olardı. Onu da qeyd etmək istəyirəm ki, qanunda ümumi şəkildə təhsilalanların sayına görə yox, bir psixoloqun işləyə biləcəyi norma müəyyən olunaraq konkret göstərilməlidir. Hazırda şagird sayından asılı olmayaraq, həm 200 nəfərlik, həm də 3000 nəfərlik təhsil müəssisəsində bir psixoloq ştatı vardır. Yəni demək istədiyim odur ki, təhsil müəssisəsində psixoloqun səmərəli fəaliyyət göstərməsi üçün qanunda vahid norma müəyyənləşməlidir.

Qanunun 15.2-ci maddəsində göstərilir ki, psixoloqların statusu müəllimlərin statusuna uyğun hesablanır və əmək haqqının ödənilməsi müəllimlərin əmək haqlarına uyğun aparılır. Burda bir qanunauyğunsuzluq görürəm. Müəllimlərin ştatı ayda maksimum 18 saat dərs yükü ilə hesablanır. Psixoloqlar isə məktəb rəhbərliyi kimi gündəlik 8 saat işləyirlər. Ona görə də düşünürəm ki, psixoloqların əmək haqları müdir müavinlərinin əmək haqlarına bərabər tutularsa, daha ədalətli olardı. Hazırda isə ali təhsilli məktəb psixoloqları məktəbin texniki işçiləri ilə eyni səviyyədə əmək haqqı alırlar ki, bu da məktəb psixoloqlarının arasında narazılığın yaranmasına səbəb olur.

15.4-cü maddəyə əsasən məktəb psixoloqlarına bütün tələb və təminatlar pedaqoji işçilərə bərabər tutulur. Onda belə bir sual yaranır. Məktəb psixoloqları pedaqoji işçi he-

sab olunurlarmı və məktəb psixoloqlarının iş staji pedaqoji iş stajına daxil edilirmi? Mən düşünürəm ki, qanunla təhsil müəssisəsində psixoloqların statusu pedaqoji işçilərin statusuna bərabər tutulduğundan və pedaqoji kollektivdə fəaliyyət göstərdiyindən məktəb psixoloqları da pedaqoji işçi hesab olunmalıdırlar.

Sonda qeyd etmək istəyirəm ki, orta təhsil müəssisələrinin proqramına psixologiya fənninin daxil edilməsinə ehtiyac var. Çünki məktəblilər dərs cədvəli üzrə 6 saat dərs keçirlər. Dərsdən də sonra evə buraxılır. Belə olan halda psixoloq şagirdlərlə psixoloji işi nə vaxt və necə aparmalıdır? Qloballaşan dünyada, elektron informasiya vasitələrinin yüksək inkişaf etdiyi bir dövrdə uşaqlar daha çox psixoloji təsirlərə məruz qalırlar. Ona görə də psixologiya fənni konkret proqram tərtib olunaraq tədris olunarsa, məktəb psixoloqu təhsil müəssisəsində sistemli şəkildə fəaliyyət göstərər və bu da sağlam mühitin formalaşmasına daha effektiv töhfə vermək imkanı yaradar. Qanun layihəsini dəstəkləyirəm. Diqqətinizə görə təşəkkür edirəm.